# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 26 (3539) Cümə axşamı / 25-31 iyul 2024-cü il Qiyməti 40 qəpik


# İrəvana COP29 dəvəti

***Bu ilin payızında Azərbaycanın ev sahibliyi edəcəyi COP29 iqlim konfransı ərəfəsində Bakı növbəti dəfə üzv olduğu beynəlxalq təşkilatların norma və prinsiplərinə sadiqliyini nümayiş etdirib. Azərbaycan Ermənistanı COR29-a dəvət edib. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bunu Şuşada keçirilən II Qlobal Media Forumuna bildirib. Hikmət Hacıyev COP29-un Prezidenti Muxtar Babayevin Ermənistan xarici işlər nazirinə rəsmi dəvət məktubu ünvanladığını nəzərə çatdırıb: "Biz Ermənistanı rəsmən COP29-a dəvət etmişik. İki ölkə arasında diplomatik münasibətlərin olmadığı halda bu dəvət Azərbaycanın xoş iradəsini və inklüziv yanaşmasını göstərir. İndi Ermənistan hakimiyyətinin qərar qəbul etməsi zamanı çatıb".***



Göründüyü kimi, Ermənistanla Azərbaycan arasında hələ də sülh müqaviləsinin olmaması, işğal faktı və digər amillərin mövcudluğuna baxmayaraq Bakı ev sahibi qismində bütün ölkələrə bərabər şərait yaratmağa hazır olduğunu bəyan edir. Bu mövqe tək bəyanatlarla yox, həm də əməli addımlarla təsdiqlənir.

Qeyd edək ki, qarşıdan gələn Qlobal İqlim Konfransı Birləşmiş Millətlər Təşkilatının tədbiri olduğundan Azərbaycan tədbirə ev sahibliyi edən ölkə kimi BMT-nin bütün üzv dövlətlərinə dəvət göndərir. Bu baxımdan Ermənistana göndərilən dəvətdə də heç bir siyasi çalar yoxdur. Bu, sadəcə BMT normalarına uyğun olaraq atılmış addımdır.

Hələlik rəsmi İrəvanın Bakının dəvətinə hansı reaksiyanı göstərəcəyi məlum deyil. Erməni KİV-nin Xarici İşlər Nazirliyinə ünvanladığı sorğular da cavabsız qalmaqdadır. Bununla belə, Ermənistanın bu dəvət məktubundan da özünün siyasi dividentləri məqsədi ilə yararlanmağa çalışacağının işartıları artıq görünməkdədir. İrəvandan daxil olan məlumatlara əsasən, Ermənistan bu məsələni birbaşa olaraq Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması prosesi ilə əlaqələndirərək, məhz siyasi müstəviyə keçirməyə çalışır.

Diqqət edək, Ermənistan parlamentinin müdafiə komitəsinin sədri Andranik Köçəryan öz düşüncəsində İrəvanın Bakının dəvətinə müsbət cavab verməsi və Ararat Mirzoyanın Bakıya səfər etməsinin bəzi "şərtlərə" bağlı olduğunu açıqlayıb. Onun sözlərinə görə, dəvətin cavabsız qalmaması üçün Bakı "onun məqsədlərində və planlarında sülhün dominant olduğunu sübut etməlidir". Köçəryan Bakının dəvətini "normal" adlandırıb, lakin qeyd edib ki, Ermənistan nümayəndəsinin iştirak etməsi üçün Bakı öz ritorikasını dəyişməlidir.

Qeyd edək ki, erməni müxalifəti Ararat Mirzoyanın Bakıya dəvətini "macəra" adlandırıb və bunu qəbul etməklə İrəvanın heç bir dividend ala bilməyəcəyini bəyan edib.

Bununla belə, Köçəryan müxalifətin mesajını tənqid edərək, onun nümayəndələrinin Ermənistanın təhlükəsizliyi və milli maraqları ilə bağlı məsələlərdən çoxdan geri çəkildiyini qeyd edib.

Beləliklə, İrəvan öz xarici işlər nazirinin COP29 konfransında iştirakı ilə bağlı sövdələşməyə başlamaq niyyətini gizlətmir. Ararat Mirzoyanın Bakıya gəlişi naminə Azərbaycan Ermənistanla sülhün əldə edilməsi məsələsində öz mövqelərinə düzəliş etməyəcəyindən ölkəmiz növbəti dəfə Ərəvanın primitiv və açıq-aydın əks-məhsuldar taktikası ilə üzləşib.

Bakıya qarşı beynəlxalq məhkəmədə ermənilərin ruporuna çevrilən keçmiş "prokuror" Luis Moreno Ocamponun da bu dəvətdən sonra

> *Bu dəvət Azərbaycanın xoş iradəsini və inklüziv yanaşmasını göstərir*

səsləndirdiyi fikirlər söylədiklərimizi təsdiqləyir. O bildirib ki, BMT-nin noyabrda keçirilməsi planlaşdırılan İqlim Konfransı hazırda Azərbaycanda həbsdə olan separatçıların "azad edilməsi üçün görünməmiş şans" adlandırıb. O, bu məqsədlə xüsusi kampaniyaya başlamağa çağırıb.

Ermənistanın baş naziri Nikol Paşinyan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak edib-etməyəcəyini avqustda açıqlayacaq. Bu barədə Ermənistanın "Hraparak" qəzeti yazıb. Nəşr yazır ki, Paşinyan avqust ayında mətbuat konfransı keçirəcək və burada Ermənistanın Azərbaycan tərəfindən COP-29-a dəvət olunması məsələsinə toxunacaq. Bütün bunların fonunda dəyişməyən tək bir reallıq var. Azərbaycanın sülh üçün irəli sürdüyü tələblər. Bu tələblər ölkəmizə qarşı ərazi iddialarına birdəfəlik son qoyulması ilə bağlıdır. Hansı ki, Ermənistan Konstitusiyası və daxili qanunvericilik aktlarının dəyişdirilməsindən keçir.

Həmçinin artıq heç bir əhəmiyyəti qalmayan, tarixdə işğala haq qazandıran bir format kimi ad çıxaran ATƏT-in Minsk qrupunun ləğv edilməsi də Bakının əsas sülh şərtlərindən biridir. Göründüyü kimi, bu tələblərin noyabrda keçirilməsi planlaşdırılan Beynəlxalq İqlim Konfransına heç bir aidiyyatı yoxdur. İrəvanın iki məsələni bir-biri ilə ələqələndirərək hansısa dividentlər götürmək cəhdləri isə əvvəldən uğursuzluğa məhkumdur.

Bakının sülh gündəliyi dəyişməz olaraq qalır. Əgər Ermənistan öz Xarici İşlər Nazirliyinin rəhbərini Bakıya göndərmək niyyətindədirsə, o zaman bu məsələni siyasiləşdirmədən və xüsusən də heç bir şərt irəli sürmədən bunu etməlidir. Əks halda noyabrda bütün dünya ən azı iki həftə Bakının, Azərbaycanın adını hallandıracaq. Dünyadakı əsas proseslərin qəlbi Bakıda döyünəcək. Ermənistan isə bütün bunları hər zaman olduğu kimi, yenə də kənardan izləyərək qalacaq.

*Ləman Əliyeva*

---

MÜSAHİB

## Qafqaz ikinci Ukrayna olacaq?



**Elxan Şahinoğlu,**
politoloq

***Avropa Ermənistanı silahlandırmaq üçün İrəvana milyonlarla dollar vəsait ayırır. ABŞ dağılmış erməni ordusunu restavrasiya etmək üçün birgə təlimlər keçirir. Paşinyan londonda Azərbaycan Prezidenti ilə görüşdən yayınır. Bakının sülh şərtləri yerinə yetirilmir. Bu proseslər bölgədə hansı təhlükələrdən xəbər verir? Müsahibimiz politoloq Elxan Şahinoğludur:***

- Əvvəla, qeyd edim ki, Azərbaycan bütün qonşu dövlətlərlə, o cümlədən Qərblə bərabərhüquqlu tərəfdaşlığa üstünlük verir. Təəssüf ki, bəzi ölkələr Ermənistanı silahlandırmaqla Azərbaycana qarşı əks siyasət ortaya qoyurlar. Halbuki həmin ölkələr Azərbaycanla tərəfdaşlığa meyillidir.

> *Qərb, Avropanın bəzi imperialist gücləri, sanki Rusiya-Ukrayna müharibəsinin davamını Cənubi Qafqazda törətmək üçün platforma yaratmaqla məşğuldur*

Səh. 3

---

MÜSAHİB



**Tahir Cəfərli,**
siyasi analitik

- Demokratlar Trampın qarşısına çıxara biləcəkləri siyasi lider tapa bilmirlər
- ABŞ və AB İrana qarşı sanksiyalarını aradan qaldırmaq üçün Azərbaycandan keçən tranzit yollar İran iqtisadiyyatına böyük səmərələr verə bilər
- Zəngəzur dəhlizinin işləməsindən ən çox faydalanacaq ölkə Rusiya və Türkiyədir

Səh. 6

---

GÜNÜN FOTOSU...



**Zəfər parkı**

---

GÜNÜN SİTATI

> *COP29 iqlim dəyişikliyi məsələsinin gündəmdə saxlanılmasında mühüm rol oynayacaq*



**Saymon Still,**
BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi

---

KARİKATURA




**Ermənistanın yalan xəritələri can almaqda davam edir**

---

## Qayıdış Qarabağda turizmi canlandırır

**Ceyhun Aşurov,**
turizm üzrə ekspert

Səyahət edənlərin çoxu öz dədə-baba ocaqlarını, doğma yurdlarını görmək istəyənlərdir.

Səh. 4

---

STATİSTİKA



**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən cari ilin yanvar-iyun ayları ərzində daşınmaz əmlak üzərində 177 min 664 mülkiyyət hüququ qeydiyyata alınaraq çıxarışla təmin edilib.**

Dövlət Xidmətindən verilən məlumata görə, bu göstəricinin 27 min 707-si (15,6 faiz) ilkin, 149 min 957-si (84,4 faiz) isə təkrar qeydiyyatın payına düşür.

---



Səh. 7

## Sürəti də artacaq, qiyməti də

PREZİDENTİN İŞ GÜNÜ

# Prezident İlham Əliyev Şavkat Mirziyoyevə zəng edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İyulun 24-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib.**

Bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidmətinin məlumat yayıb. Dövlətimizin başçısı Şavkat Mirziyoyevi ad günü münasibətilə təbrik edərək, ona möhkəm cansağlığı və prezidentlik fəaliyyətində yeni uğurlar arzulayıb. Şavkat Mirziyoyev göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib. Prezidentlər bu il iyulun 5-6-da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün və bu tədbir çərçivəsində təmasların əhəmiyyətini qeyd ediblər. Telefon söhbəti zamanı dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə edib, əməkdaşlığın perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.

# Samir Nuriyev Saymon Stil ilə görüşüb



***İyulun 24-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, COP29 üzrə Təşkilat Komitəsinin sədri Samir Nuriyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil ilə görüşüb.***

Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə COP29-a hazırlıq prosesi barədə məlumat verib, bu günlərdə ölkəmizin təşəbbüslərinin geniş ictimaiyyət üçün açıqlandığını, COP29-un müəyyən edilmiş prezidentinin Çərçivə Konvensiyasının bütün tərəflərinə bu mötəbər tədbirlə bağlı planları, gözləntiləri əks etdirən müfəssəl məktub ünvanladığını bildirib.

Prezident Administrasiyasının rəhbəri COP29 sədrliyinin bütün dövlətlərin və digər maraqlı tərəflərin mövqeyini öyrəndiyini, mühüm beynəlxalq toplantılarda iştirak etdiyini, fəal şəkildə çalışdığını diqqətə çatdırıb, ölkəmizin yeni iqlim maliyyəsinin məbləği üzrə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında konsensusa nail olunması üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

Samir Nuriyev, həmçinin COP29-a hazırlıq prosesi çərçivəsində Azərbaycanda keçiriləcək tədbirlər, konfransa qatılacaq nümayəndə heyətləri və digər iştirakçılar üçün yaradılacaq şərait, vətəndaş cəmiyyətinin COP29-da iştirakına dəstək, kommunikasiya sahəsində görülən işlərdən danışıb.

Saymon Stil Azərbaycan tərəfindən COP29-un uğurla keçirilməsi istiqamətində aparılan işlərdən, kiçik ada ölkələrinə dəstək verilməsinin Azərbaycanın gündəliyində yer almasından məmnunluğunu ifadə edib, BMT-nin COP29-un təşkili ilə bağlı Azərbaycana hər cür kömək göstərməyə hazır olduğunu bildirib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Şuşadan İrəvana sülh tələbi

***Milli Mətbuat Günü ərəfəsində Şuşada Prezident İlham Əliyevin də iştirakı ilə növbəti Qlobal Media Forumu keçirildi. Dövlət başçısı çoxsaylı sualları cavablandırarkən bir çox məqamlara aydınlıq gətirdi. Prezident növbəti dəfə beynəlxalq media auditoriyası qarşısında Azərbaycanla Ermənistan arasında aparılan sülh danışıqları, prosesin mövcud durumu və Bakının gözləntiləri ilə bağlı mühüm bəyanatlar verdi. Onun sözlərinə görə, sülh sazişinin mətni 80-90 faizi razılaşdırılıb: "Ancaq burada yenə də hazırda iki məsələ var. Birincisi, Ermənistan bizim təkliflərə müsbət cavab verməlidir ki, həm Ermənistan, həm Azərbaycan birgə ATƏT-ə müraciət etsin ki, Minsk qrupu ləğv edilsin.***




## Gündəm

Uzun müddətdir bu qrup fəaliyyətsizdir, bəlkə də bir-iki il olar. Minsk qrupunun fəaliyyətdə olması üçün heç bir səbəb yoxdur. Həmsədrlər de-fakto bir-birləri ilə müharibədədirlər, yəni onların ikisi digərinə qarşı bir yerdədir. Fransa burada bütün imkanlardan məhrum edilib. Onlar nəinki vasitəçi, heç bu regionda ola da bilməzlər. Onlar Cənubi Qafqaz regionunda bizim razılığımız olmadan mövcud ola bilməzlər. Bizsiz onu etmək istəyirlərsə, onlar uğursuzluğa düçar olacaqlar və bu, bir daha onlar üçün çox acınacaqlı və ağrılı bir məsələ olacaq. Minsk qrupunun burada bir növ "canlı" saxlanılmasında nə fayda var, nə məqsəd var?! ATƏT daxilində konsensus şəklində qərarlar qəbul edilir. Ermənistan Minsk qrupunu hələ də fəaliyyətdə saxlamaq istəyirsə, bu o deməkdir ki, hələ də Azərbaycana qarşı ərazi iddiası var və bu, çox ciddi bir faktordur. Bu, bir testdir, bu, bir göstəricidir. Onlar bəyanatlarında bəzən bir şey deyirlər, əməldə isə tam fərqli hərəkətlər edirlər. Onlar ən yüksək səviyyədə deyirlər ki, "Qarabağ Azərbaycandır!". Halbuki 2019-cu ildə bir neçə kilometr buradan uzaqda həmin şəxs çox emosional şəkildə bəyan edirdi ki, "Qarabağ Ermənistandır!". Bu gün həmin adam deyir ki, "Qarabağ Azərbaycandır!". Bu, çox gözəl transformasiyadır və mən bunu təqdir edirəm. Ancaq indi bunu əməli addımlarla sübut etmək lazımdır. Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-ə birgə müraciət edilməlidir.

Növbəti şərt odur ki, Ermənistan konstitusiyasında dəyişikliklər edilməlidir. Bizim onların daxili işlərinə hər hansı bir müdaxilə etmək niyyətimiz yoxdur. Ermənistan konstitusiyasında müstəqillik barədə müddəa var və orada Azərbaycanın ərazi bütövlüyünə qarşı təhlükə var, təhdid var. Orada Ermənistanın və dırnaqarası "Dağlıq Qarabağ"ın birləşməsindən söhbət gedir. Yəni, bu müddəa o konstitusiyada olduğu müddətdə sülh sazişi mümkün deyil. Bir daha demək istəyirəm ki, məni hər kəs yaxşı başa düşsün. Ermənistanın daxili işlərinə bizim hər hansı müdaxiləmizdən söhbət gedə bilməz. Konstitusiyada belə bir maddənin olması sülh sazişini mümkünsüz edir. Konstitusiya hər hansı bir beynəlxalq müqavilədən üstün sənəddir. Ona görə o vəziyyətdə olmaq istəmirik ki, bir gün onlar yenə də öz fikirlərini dəyişəcəklər və biz sentyabrda atdığımız addımları təkrar etməyə məcbur qalacağıq.

Bununla yanaşı, mətn üzərində danışıqlar davam edir. Deyə bilmərəm ki, xarici işlər nazirləri növbəti görüşü nə zaman keçirəcək? Mən daha az nikbinəm. Bildiyiniz kimi, baş nazir Paşinyan mənimlə Britaniyada görüşməkdən imtina etdi. Bu, Britaniya Hökumətinin təşəbbüsü idi. Təklif o idi ki, aramızda belə bir görüş keçirilsin, həmin Oksford tədbiri çərçivəsində olsun. Ermənistan tərəfi bu təklifi rədd etdi. Biz buna çox təəccübləndik, çünki dörd ay bundan əvvəl Kansler Şolts Münhen şəhərində bənzər bir görüş təşkil etdi. O, görüşdə iştirak edirdi, 5-6 dəqiqə ərzində bizimlə bir yerdə oldu, sonra otağı tərk etdi. Detallar bu idi. Belə bir format düşünülmüşdü ki, o, giriş sözündən sonra otağı tərk etsin. Beləliklə, görüşümüz ikitərəfli qaydada davam etdi. Britaniya Hökuməti də eyni təklifi verdi. Görüşdə Britaniyanın Baş naziri iştirak edəcəkdi və sonra çıxacaqdı. Baş nazir Paşinyan bundan imtina etdi. Yəni, o, mənimlə danışmaq istəmirsə, hansı sülh sazişindən söhbət gedə bilər. O, Britaniyanın Baş naziri ilə danışmaq istəmirsə, Londona və Oksforda niyə səfər edirdi? Yəni, bir sıra məsələlərdə çox ciddi ziddiyyət var. Biz baxacağıq, dediyim kimi, mən Londondan dünən qayıtmışam. Bir istiqamət mətndir - sülh sazişinin mətni, digəri, dediyim kimi, Ermənistan konstitusiyasıdır". Dövlət başçısının məlum çıxışı və Şuşa Qlobal Media Forumunun əhəmiyyəti həm yerli, həm də beynəlxalq ictimai-siyasi kəsim tərəfindən çox müsbət qarşılanır və dəyərləndirilir.

■ **"Qlobal Media Forumunun Şuşada keçirilməsi, Prezidentin çıxışı, toxunduğu məsələlər dünyaya verilən mühüm mesaj idi. Dostlar sevinməli, düşmən bundan nəticə çıxarmalıdır". Bu fikirləri hafta.az-a deputat Arzu Nağıyev deyib.**

A.Nağıyev bildirib ki, bir dövlət olaraq hər zaman sülhün tərəfdarıyıq və Cənubi Qafqazda sülhü bərqərar etmək üçün heç bir dövlətin vasitəçiliyinə ehtiyacımız yoxdur. Sülh üçün həm Ermənistan, həm Azərbaycanın birgə müraciəti əsasında ATƏT-in Minsk qrupu ləğv olunmalı, Ermənistan konstitusiyasına dəyişiklik edilməlidir.

"30 ilə yaxın bir müddətdə ATƏT-in Minsk qrupu yaranma məqsədinə uyğun heç bir fəaliyyət göstərməyib. Bu müddət ərzində təşkilat gündəliyində olan tapşırıqları doğru yerinə yetirməmişdi. Azərbaycanın işğal altında olan torpaqlarını öz gücü ilə azad etməsi sözügedən təşkilatın heç bir işə yaramadığını düşünməyə əsas verir".

A.Nağıyev əlavə olaraq qeyd edib ki, bu təşkilatın tərkibinə daxil olan dövlətlər Ermənistanın dəstəkçiləridir. Ona görə də bu məsələdə heç bir şəffaflıqdan söz gedə bilməz. Zaman özü də bunu sübut etdi:

"Ermənistan konstitusiyasında ölkəmizə qarşı ərazi iddiaları var. Burada olan bəzi müstəqillik haqqında müddəalar Azərbaycanın ərazi bütövlüyünə qarşı təhdiddir. Əlbəttə ki, sülh bağlamaq istədiyin ölkəyə qarşı konstitusiyada ərazi iddiasının olması absurd məsələdir. Ona görə də bu məsələnin həlli sülhə gedən yolda önəmli addımlardan biri ola bilər".

A.Nağıyev qeyd edir ki, Ermənistan baş naziri Nikol Paşinyanın İlham Əliyevlə bir araya gəlməkdən imtina etməsinin kökündə məhz bu məsələ durur:

"Rəsmi İrəvan başa düşməlidir ki, bu, həll edilmədən heç bir sülhdən söz gedə bilməz. Prosesin reallaşması üçün Ermənistan hakimiyyəti erməni cəmiyyətinə ideoloji təsir etməlidir. Sülhün bərqərar olması, gələcəkdə yeni hərbi münaqişələrin yaranmaması üçün Ermənistan bu danşıqlara getməlidir.

Bütün dünya bilir ki, Ermənistanın daxili və xarici siyasəti Fransa kimi dövlətlərdən asılıdır. Bununla yanaşı bilirlər ki, sülh müqaviləsi bağlanarsa, sarkisyanlar, köçəryanlar həbs olunmalıdır. Ona görə də bu prosesdən yayınırlar. Bilməlidirlər ki, sühdən başqa yolları yoxdur. Sülhdən imtina Ermənistanı uçuruma aparır".

"Ermənistanın London görüşü ərəfəsində Kəlbəcər istiqamətindən atəşkəsi pozması Avropa və Qərb sifarişçilərinin diqtəsi ilə baş verir. Regionda gərginliyin yaranmasında maraqlı olan qruplar Ermənistana satdıqları, yaxud hədiyyə etdikləri silahları sınaqdan keçirir, tərəfləri sülh danışıqlarından yayındırmağa çalışırlar".

> “
> Sülh bağlamaq istədiyin ölkəyə qarşı konstitusiyada ərazi iddiasının olması absurd məsələdir
>
> Ermənistan oz üzərinə düşən öhdəliyi yerinə yetirmir
>
> Dünyanın müxtəlif coğrafiyalarındakı erməni diaspor təşkilatları həqiqətən də keçmiş münaqişə vəziyyəti haqqında tam yanlış təsəvvürlər formalaşdırırdı

■ **Bunu isə hərbi ekspert Emin Həsənli bildirib. Ekspert qeyd edib ki, Ermənistan oz üzərinə düşən öhdəliyi**



**yerinə yetirmir. Onun sözlərinə görə, istər Çar Rusiyası dönəmində, istərsə də sonraki illərdə müəyyən öhdəliklər əsasında Ermənistana 10 min kv km ərəzi verilmişdi.**

Ermənistan nə sovet, nə də indiki dönəmdə heç bir öhdəliyi yerinə yetirmir. "Ermənistanın Böyük Britaniyada görüşdən imtinasının məqsədi sülh danışqlarına xələl gətirməkdir. Ermənistan ABŞ, Fransa kimi dövlətlərdən asılıdır. Ona görə də ya müstəqil qərar verə bilmir, yaxud regionda sülhün bərqərar olmasını istəmirlər. Buna görə də bu cür təxribatlari törədirlər.

London görüşündə son qərarını verməli, konstitusiyasını dəyişməli, vurduqları zərərə görə təzminat ödəməli, törətdiyi cinayətə görə Sarkisiyan, Ohonyan kimi cinayətkar qrupu Azərbaycana təhvil verilməlidir. Ermənistan bu öhdəliklərini yerinə yetirmək istəmir, yenə də xülya görürlər. Bu, sonsuza qədər davam edə bilməz. Ya öhdəlikləri yerinə yetirməlidilər, ya da ki, hardan gəliblər ora qayıtmalıdırlar".

"İkinci Şuşa Qlobal Media Forumunun keçirilməsi və onun çərçivəsində yalan məlumatların ifşası, dezinformasiyaya qarşı mübarizə ətrafında müzakirələrin aparılması müasir dövr üçün çox əhəmiyyətlidir".

■ **Bunu hafta.az -a professor Elşad Mirbəşir Prezident İlham Əliyevin "Yalan məlumatların ifşası: dezinformasiyaya qarşı mübarizə" mövzusunda keçirilən II Şuşa Qlobal Media Forumundakı çıxışı və əhəmiyyəti barədə açıqlamasında bildirib.** E.Mirbəşir hesab edir ki, ən təhlükəli məsələ, silahlardan biri dezinformasiyadır. Dezinformasiya vasitəsilə ayrı-ayrı ölkələrə qarşı ciddi siyasi hücumlar təşkil edilir, onların haqqında Prezidentin də qeyd etdiyi kimi heç bir əsası olmayan yalnış norativlər formalaşdırılır.

"Keçmiş münaqişə vəziyyəti ilə bağlı Ermənistan Azərbaycana qarşı həm də informasiya mübarizəsini həyata keçirirdi və Azərbaycan haqqında yanlış fikirlər formalaşdırırdı. Dünyanın müxtəlif coğrafiyalarındakı erməni diaspor təşkilatları həqiqətən də keçmiş münaqişə vəziyyəti haqqında tam yanlış təsəvvürlər formalaşdırırdı. Bu təsəvvürlər, ümumiyyətlə, ictimai rəyə təsir edir, manipulyasiya olunmasına imkan yaradırdı. Yəni Ermənistan beynəlxalq ictimai rəyi də Azərbaycana qarşı yönləndirməyə çalışırdı. Bu baxımdan İkinci Şuşa Qlobal Media Forumu çərçivəsində dezinformasiya ilə mübarizə məsələləri ətrafında fikir mübadiləsinin aparılması, ölkə Prezidentinin səsləndirən suallara cavab verməsi çox əhəmiyyətlidir".

■ **Sergey Markov, Siyasi Araşdırmalar İnstitutunun direktoru deyir: "Azərbaycanla Ermənistan arasında sülh prosesi müsbət istiqamətdə gedir. Yəqin ki, noyabrda COP29-da sülh müqaviləsi imzalamaq olardı, lakin Ermənistan rəhbərliyi tərəddüd edir. Onlar konstitusiyaya hər hansı düzəliş etməyə cəsarət etmirlər, bu, mütləq zəruridir.**

Biz bəşəriyyətin qlobal inkişafına verdiyi töhfələrə görə Azərbaycana və Prezident İlham Əliyevə minnətdarıq. Burada qlobal problem həll olunur. Qlobal problemi mücərrəd şəkildə həll etmək olmaz. Dünyanın bir çox KİV-lərinin dezinformasiya vasitələrinə çevrildiyini görürük. Xalqları birləşdirmək əvəzinə xalqlar arasında dava salırlar. Böyük miqdarda saxta xəbərlər yayılır.

İqor Korotçenko, Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru: "Ermənistan Azərbaycanla ədalətli şərtlərlə sülh bağlamaq istəmir. Ermənistanın baş naziri Nikol Paşinyan bu yaxınlarda Böyük Britaniyada keçirilən qlobal beynəlxalq tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdən imtina edib. Bu, Ermənistanın mövqeyinin ikili olduğunu, ədalətli prinsiplər əsasında sülh müqaviləsi bağlamaq istəmədiyini göstərir. Bunlar Azərbaycan Prezidenti İlham Əliyevin müəyyən etdiyi beş prinsipdir.

Fransa kimi ölkələr İrəvana təsir göstərməyə, sülh müqaviləsinin hazırlanmasını və bağlanmasını ləngitməyə çalışır. Fransa Ermənistanı silahla vurmaq və onu yeni qeyri-sabitlik mənbəyinə çevirmək istəyir. Ona görə də vəziyyət çətindir, amma düşünürəm, Azərbaycan diplomatiyası qarşısına qoyduğu məqsədlərə çatacaq.

Sülh müqaviləsi hər kəs üçün vacibdir. Rusiya bu sənədin imzalanmasını gözləyir. Biz çox istərdik, bu, heç olmasa, bu ilin sonuna qədər, bəlkə də noyabrda baş versin. Hələ ki, Paşinyanın mövqeyi, təəssüf ki, nikbinliyə imkan vermir. İrəvanı 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın 9-cu bəndində nəzərdə tutulan öhdəlikləri yerinə yetirməyə məcbur etmək vacibdir.

✍ *Tahirə*

Müsahib

# Qafqaz ikinci Ukrayna olacaq?

**Avropa Ermənistanı silahlandırmaq üçün İrəvana milyonlarla dollar vəsait ayırır. ABŞ dağılmış erməni ordusunu restavrasiya etmək üçün birgə təlimlər keçirir. Paşinyan londonda Azərbaycan Prezidenti ilə görüşdən yayınır. Bakının sülh şərtləri yerinə yetirilmir. Bu proseslər bölgədə hansı təhlükələrdən xəbər verir? Müsahibimiz politoloq Elxan Şahinoğludur:**


Elxan Şahinoğlu, politoloq

- Əvvəla, qeyd edim ki, Azərbaycan bütün qonşu dövlətlərlə, o cümlədən Qərblə bərabərhüquqlu tərəfdaşlığa üstünlük verir. Təəssüf ki, bəzi ölkələr Ermənistanı silahlandırmaqla Azərbaycana qarşı əks siyasət ortaya qoyurlar. Halbuki həmin ölkələr Azərbaycanla tərəfdaşlığa meyillidir. Avropa İttifaqı enerji və təhlükəsizlik sahəsində Azərbaycanla əməkdaşlıq edir. Eləcə də Avropa İttifaqı ölkələri bizim əsas ticarət tərəfdaşlarımızdır. Beləliklə, neft-qaz, gələcəkdə yaranacaq alternativ enerji bazarımız məhz Avropadır. Avropada başda Fransa olmaqla Ermənistanı silahlandırmaqla yeni bir münaqişə ocağı yaratmağa çalışırlar. Düzdür, ABŞ-ın məqsədi Ermənistanı gücləndirməklə, hərbi təlimlər keçirməklə bu ölkəni Rusiyadan uzaqlaşdırmaq, KTMT-i tərk etməyə təşviq etməkdir. Anlamalıdırlar ki, bu siyasəti aparmaqla Azərbaycanla sülh sazişi imzalamayan Ermənistanı təxribata yönəldirlər. Üstəlik, Ermənistan baş naziri Paşinyan özü də etiraf edir ki, ordusuna tam nəzarət edə bilmir, orduda "5-ci kolon" mövcuddur. Bunu ara-sıra atəşkəsin pozulması halları da sübut edir. Belə bir vəziyyətdə Ermənistanın siahlandırılması, hərbi təlimlər Azərbaycana qarşı yönəlmiş olur. Ona görə də hesab edirəm, rəsmi Bakı Fransanın, Brüsselin, ABŞ-ın təxribatlarına öz mövqeyini bildirməlidir. Amma dialoqdan da qopa bilmərik. Brüssel və Vaşinqtonla danışıqlar aparmalı və onlara bir daha izah edilməlidir ki, bu siyasət bölgədə yeni münaqişəyə gətirə bilər. Siz sülhü hədəfləyən tərəf olaraq bölgədə münaqişənin yaranmasında maraqlı olmamalısız. Münaqişə heç kimə yaxşı heç nə vəd etmir.

***- Cənubi Qafqaz regionu daha çox hansı dövlətlərin təsirləri ilə üz-üzədir?***

- Avropa İttifaqının, ABŞ-nin Cənubi Qafqazda öz maraqları və Gürcüstan, Azərbaycan, Ermənistanla bu və ya digər şəkildə əməkdaşlıq istiqamətləri var. Qərbin Cənubi Qafqazda əsas marağı Ermənistanı Rusiyadan uzaq tutmaqdır. Qərb Rusiyanın Ukrayna müharibəsindən sonra Cənubi Qafqazda təsirini artırmasını istəmir. Bunun üçün də Ermənistan vasitəsi ilə regionda suları bulandırıb, istədikləri qənimməti ələ keçirməyə çalışırlar. Ermənistan isə guya Rusiyadan qopmağa çalışsa da, əslində enerji, iqtisadi zəmində asılıdır - qaz alır, atom elektrik stansiyası Rusiyanın nəzarətindədir. Ermənistan əsas ticarət tərəfdaşı kimi Rusiyadan qopa bilmir, eyni zamanda hərbi cəhətdən Rusiyadan uzaqlaşmağa cəhd edir. Amerika, Avropa çalışır ki, heç olmasa Ermənistanı hərbi sahədə Rusiyadan uzaqlaşdırsın. Bu, Ermənistanı düşündürməlidir. Eləcə də Fransa prezidenti Emmanuel Makron Cənubi Qafqaz siyasətini korrekt etmək istəmir. Onun son təxribatçı çıxışı buna dəlalət edir. Makronun sözlərinə görə, guya Fransa Ermənistana ona görə hərbi texnika göndərir ki, bu ölkə özünü Azərbaycandan qoruya bilsin.

30 ilə yaxın torpaqlarımız işğal altında olanda Ermənistanın qorunması Fransanın yadına düşmürdü, torpaqlarımızın 20 faizinin işğalını "reallıq" kimi qəbul edirdilər. Elə ki, Azərbaycan öz torpaqlarını azad etdi, ərazi bütövlüyünü təmin etdi, Fransa əl-ayağa düşdü, hay-haray salmağa başladı ki, Ermənistanı qorumaq lazımdır. Ermənistanı Azərbaycanla sülhə təşviq etmək əvəzinə, Konstitusiyada başqalarının ərazisinə iddianın beynəlxalq hüquqa zidd olduğunu anlatmaq əvəzinə, Paris gücsüz İrəvana sanki belə mesaj göndərir ki "möhkəm ol, Azərbaycan və Türkiyə ilə razılaşma, silah və sursatı biz göndərəcəyik".

Makron deyib ki, baş nazir Nikol Paşinyanın Azərbaycana hücum etmək planı yoxdur. Həqiqətən də Paşinyan o durumda deyil ki, bu haqda düşünsün, o, İkinci Qarabağ müharibəsində elə zərbə almayıb ki, yeni müharibəyə hazır olsun. Söhbət Paşinyandan getmir, baş nazirin də etiraf etdiyi ordusundakı "5-ci kolon"dan, Yerkrapa kimi terrorçu təşkilatların varlığından gedir, hansı ki, Azərbaycana qarşı təxribatları ilə yadda qalıblar.

Makron üstəlik deyir ki, 2020-ci ildə Azərbaycan "dəhşətli" müharibəyə başlayıb. Makron unudur ki, onun "dəhşətli" adlandırdığı müharibə Azərbaycan ərazisində baş verib, məqsəd separatizmə son qoymaq olub. Beynəlxalq hüquq da bunu diktə edir. Makron Azərbaycanın bu hüququnu tanımırsa, bu onun problemidir. Makron açıqlamasının sonunda xoş olsun deyə, Ermənistanla Azərbaycan arasında sülhə dəstək verəcəyini bildirib. Sən iki dövlətə mane olma, Ermənistandakı təxribatçıları qızışdırma, sülhə Fransanın iştirakı olmadan da nail ola bilərik. Fransanın Ermənistana göndərdiyi hücum silahları sülhə yox, müharibəyə xidmət edir. Paşinyan bunu anlayanda gec ola bilər.

***- Bu gün Ermənistanın sülh danışıqlarından imtinası nədən xəbər verir?***

- Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması çərçivəsində sülh sazişini imzalaması bizim üçün vacib olsa da, bu proses yubadılır. Sülh müqaviləsinin imzalanması uzandıqca vəziyyət gərginləşir. Bu il ərzində sülh müqaviləsi imzalanmasa da, çərçivə sazişi aktualdır. Top Paşinyanın meydanındadır. Əgər Paşinyan dediyi kimi qonşularla normal münasibətlər qurmaq, Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq istəyirsə, bunun bircə yolu var - konstitusiyada dəyişikliklər edib sülh sənədinin imzalanmasını sürətləndirməlidir. Əks halda, bundan daha çox Ermənistan zərər görəcək.

***- Ermənistanın Londonda görüşdən imtinasının səbəbi nə idi?***

- Nikol Paşinyan Böyük Britaniyanın paytaxtında keçirilən "Avropa Siyasi Birliyi"nin 4-cü Zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidenti ilə görüşdən imtina etsə də, London iki lideri görüşdürmək üçün əlavə diplomatik səylər göstərəcək. Çünki Paşinyan və İlham Əliyev fevralda Berlində Təhlükəsizlik Konfransı çərçivəsində Almaniyanın kansleri Olaf Şoltsun iştirakı ilə görüşüblər. Bundan sonra Vaşinqtonda NATO sammiti çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan dövlət katibi Entoni Blinkenin iştirakıyla üçtərəfli görüş keçiriblər. İndi isə London da Avropa toplantısı çərçivəsində fürsətdən istifadə edib Azərbaycan və Ermənistan liderlərinin görüşünü təşkil etmək istəyirdi. Bu, Böyük Britaniyaya Cənubi Qafqazda maraqlı olduğunu, o cümlədən Bakı ilə İrəvan arasında Berlin və Vaşinqton qədər moderatorluğunu göstərmək üçündür. Paşinyan Londonda Azərbaycan Prezidenti ilə görüşmədi. Birinci səbəb masada Böyük Britaniyanın baş naziri Kir Starmerin oturması ehtimalı idi. Bunda qeyri-adi heç nə yoxdur. Avropa ilə bağlı toplantı Londonda keçirilib və Azərbaycanla Ermənistanın liderini görüşdürmək təşəbbüsü ev sahibi kimi Böyük Britaniyadan gəlib. Necə ki, fevralın əvvəlində İlham Əliyev və Nikol Paşinyan Münhendə Təhlükəsizlik Konfransında iştirakları səbəbiylə onları Almaniyanın kansleri Olaf Şolts görüşdürmüşdü, eynisini Böyük Britaniyanın baş naziri etmək istəyirdi. Bu, ümumi qaydadır. Digər tərəfdən Böyük Britaniyanın baş nazirinin iştirakı simvolik xarakter daşıyacaqdı. Kir Starmer ümumi şəkil çəkdirib və qısa şəkildə giriş nitqi deyib otağı tərk edəcəkdi. Olaf Şolts da fevralda belə etmişdi. Qəribəsi odur ki, Böyük Britaniya Azərbaycanla tərəfdaşlıq münasibətlərinə malik olsa da, İrəvan da son bir ildə Londonla sıx əlaqələr qurub, qarşılıqlı səfərlər reallaşıb. Fikrimcə, Paşinyanın görüşdən imtinasının əsl səbəbi onun İlham Əliyevin iki tələbini yerinə yetirməsindən yayınmasıyla bağlıdır. Birinci tələb Ermənistan Konstitusiyasında Azərbaycana ərazi iddialarını əks etdirən bəndlərin çıxarılması, ikinci tələb Minsk Qrupundan imtinanın birgə elan edilməsidir.

Görünür, Paşinyan bu iki tələbin yerinə yetirilməsini onun hakimiyyətinin zəifləməsi və reytinqinə təsir edəcəyi ilə əlaqələndirir. Halbuki bu iki şərt yerinə yetirilmədən sülh sazişinin imzalanması mümkün deyil. İlham Əliyevin sözlərinə görə, sülh sazişinin mətninin 90 faizi razılaşdırılıb. İki tələbin yerinə yetirilməsi 10 faizin içindədir, sülhə bircə addım qalıb. Paşinyan hər iki addımı atmaq məcburiyyətindədir, vaxtın uzanması heç nəyi dəyişməyəcək. Lakin erməni mətbuatında yayımlanan iddiaya görə, guya Paşinyan İlham Əliyevə vəd verib ki, Ermənistanda 2026-cı il parlament seçkilərindən sonra Konstitusiyanı dəyişdirəcək. Başqa sözlə, Ermənistanın baş naziri Azərbaycan Prezidentindən vaxt istəyib.

> *"Qərb, Avropanın bəzi imperialist gücləri, sanki Rusiya-Ukrayna müharibəsinin davamını Cənubi Qafqazda törətmək üçün platforma yaratmaqla məşğuldur*

Belə bir vədin olub-olmadığını söyləmək çətindir. Nikol Paşinyan heç imzaladığı 9 noyabr bəyanatını yerinə yetirmədi, qoşunlarını Qarabağdan çıxartmadı, bunu biz etdik, onun şifahi vədini yerinə yetirəcəyinə inanmaq olarmı? Digər tərəfdən, yaxın iki ildə Ermənistanda o qədər hadisə baş verə bilər ki, bunu kimsə proqnozlaşdıra bilməz. Paşinyan istəyir ki, əvvəlcə sülh sazişi imzalansın, digər konseptual məsələlər sonraya qalsın. Rəsmi Bakı da anlayır ki, sərhədlərin müəyyənləşməsi vaxt aparacaq və bu, sülh sazişinin imzalanmasına mane olmamalıdır. Ancaq Ermənistan Konstitusiyasında qonşusunun ərazisinə iddiaları əks etdirən bəndlərin sənəddən çıxarılması qeyri-müəyyən illərə saxlanılmamalıdır. Bunun həllinin başqa yolu il ərzində imzalanması ehtimal olunan çərçivə sazişində Ermənistanın yaxın iki il ərzində Konstitusiya dəyişikliyinə gedəcəyi barədə üzərinə konkret bəndlə öhdəlik götürməsidir. Anlamalıdırlar ki, Ermənistanda baş nazir kim olursa-olsun, bu öhdəliyin yerinə yetirilməməsi onlara baha başa gələcək.

***- Avropa İttifaqının Cənubi Qafqazdakı planları və hazırda Ermənistanla bərabər sərgilənən mövqelərinə nədən xəbər verir?***

- Məlumdur ki, Avropa İttifaqının Siyasi və Təhlükəsizlik Komitəsi Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan üzrə yeni xüsusi nümayəndəsi vəzifəsinə Maqdalena Qrononun namizədliyini təsdiqləyib.

Maqdalena Qrono Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin baş müşaviri vəzifəsində çalışıb. Toivo Klaar Şarl Mişelin tapşırıqlarını yerinə yetirir, Bakı ilə İrəvana səfərləri sırasında Brüsselin təkliflərini çatdırırdı. Onun açıqlamaları bəzən ziddiyyətli olurdu. Ədalət naminə demək lazımdır ki, Şarl Mişel Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması üçün çox çalışdı, ancaq onun planlarını Fransa prezidenti Emmanuel Makron pozdu.

Makron "mən də masada oturmalıyam" deməsəydi, Şarl Mişelin Bakı ilə İrəvan arasında moderatorluğu davam edəcəkdi. Rəsmi Bakı Makronun iştirakıyla Brüsselin moderatorluğunu qəbul etmədi. Bununla Brüssel Berlinin və Vaşinqtonun arxasında qaldı, indi əsas moderatorlar bu iki dövlətdir. Odur ki, Fransa masadan çəkilmədiyi müddətdə Maqdalena Qrononun Bakı və İrəvana səfərləri nəticə verməyəcək.

***- Avropa İttifaqının Ermənistana silah üçün pul ayırması nə ilə bağlıdır?***

- Regionun beynəlxalq güclərin geosiyasi maraqları müstəvisində yenidən çalxalandırılması cəhdləri müşahidə olunur. 44 günlük savaşdan sonra məğlub olan Ermənistan sanki Rusiyadan üz döndərərək Qərbə sığınıb və bu istiqamətdə atdığı addımlarla növbəti oyunların kuklasına çevrilib. Bu gün Ermənistanın sülh prosesindən imtinası, regiona "hakimlik" etmək istəyi ilə özünün təsir rıçaqlarını yaratmaq üçün çabalayan ABŞ, Fransanın Ermənistanı silahlandırması, hərbi təlimləri, Avropa missiyasının Ermənistana daşınması, Azərbaycana qarşı qərəzli bəyanatlar və çıxışların nəticəsi kimi meydana gəlir. Qərbin, Avropanın Cənubi Qafqazda Rusiya ilə maraqları toqquşur və Rusiyanı bölgədən sıxışdırmaq üçün çalışır. Qərb, Avropanın bəzi imperialist gücləri, sanki Rusiya-Ukrayna müharibəsinin davamını Cənubi Qafqazda törətmək üçün platforma yaratmaqla məşğuldur. Görünən odur ki, Ermənistan Qərbin diqtəsi ilə regionda geosiyasi münaqişə potensialını dirçəldir. Beş apreldə keçirilmiş ABŞ-Avropa İttifaqı-Ermənistan üçtərəfli ABŞ-Ermənistan birgə hərbi təlimləri ilə diqqət çəkməklə reallığı dəyişməyə yönəlib. Qərbin, Avropanın regionda yaratmaq istədiyi gərginliyin Rusiyanı bölgədən sıxışdırılmağa hesablandığı meydana gəlsə də, əslində bu, Türkiyənin, Azərbaycanın regionda bir aparıcı dövlət olaraq qəbul edilməməsi və bundan doğan aqressiyadır.

***- Azərbaycan sülhü hədəflədiyini bəyan edən, lakin işğalçını silahlandıran Qərbə, Avropa İttifaqına hansı mesajları verir?***

- Prezidenti İlham Əliyev Şuşada Qlobal Media Forumda çıxışında da bəyan etdi ki, Azərbaycan beynəlxalq aləmdə dostlarının və tərəfdaşlarının sayını artırıb, müxtəlif regional təşkilatlarda ölkənin mənafeyi baxımından iştirak etməkdə maraqlıdır.

Dövlət başçısı Qərbə düşmən gözüylə baxan, "kollektiv Qərb" ifadəsini mənfi mənada hallandıranlara da yaxşı cavab verib. O, Avropa Parlamenti və Avropa Şurası, o cümlədən Fransa xaricində Azərbaycanın Qərblə münasibətlərində problemin olmadığını bu şəkildə dəyərləndirib. Prezident deyib: "Vaxt keçdikcə Qərbin siyasi dairələrində reallıq daha çox üzə çıxır və Azərbaycana bərabər tərəfdaş kimi yanaşılır".

Eyni zamanda, Azərbaycan İkinci Qarabağ müharibəsindəki qələbədən 3 il sonra anti-terror əməliyyatı ilə işğala və separatizmə birdəfəlik son qoydu. Gözləmək olardı ki, bu qələbəmizi həzm edə bilməyənlərin sayı çox olacaq, bizə təzyiq artacaq. Heç biri olmadı, kiçik istisnalar xaricində ərazimizdə separatizmə son qoymağımıza etiraz olmadı, əksinə, tərəfdaşlığa üstünlük verənlərin sayı artdı. Reallıq budur.

✍ Tahirə Qafarlı

# Prezident Zəfər parkında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Zəfər parkında aparılan tikinti işləri ilə tanış olub. "PMD Projects" şirkətinin direktoru Nəriman Topçibaşev parkda görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.**

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm dən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edir. İnşası davam edən tağın hündürlüyü 44 metr, eni isə 22 metrdir.

Parka keçid hissədə 8 Noyabr - Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə Zəfər Gününü və sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.Zəfər Muzeyinə park ərazisindən iki isti-



tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Sərəncamdan dərhal sonra Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihələri hazırlandı və tikinti işlərinə başlanıldı.

Qeyd edək ki, 2023-cü il sentyabrın 27-də Anım Günündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar. Dövlətimizin başçısı və birinci xanım burada görülən işlərlə tanış olublar.

8 Noyabr prospektində inşa olunan Zəfər parkının ərazisi doqquz hektardan çoxdur. Parkın girişində 44 tağ elementin-

qamətdə giriş olacaq. Sahəsi 9 min 200 kvadratmetr olan muzeyin yan divarında Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan əsgər və zabitlərin adları qeyd ediləcək.

Ziyarətçilər muzeyi gəzdikdən sonra park hissəsinə daxil ola biləcəklər. Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası və parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası da nəzərdə tutulur.

Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə ənən cığır hündür həşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri yaradılacaq, oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan Bayrağı dalğalanacaq.

# Ceyhun Bayramov İsrail XİN-in baş direktoru ilə görüşüb



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İsrail Dövlətinin Xarici İşlər Nazirliyinin baş direktoru Yakov Blitşteyn arasında görüş keçirilib.**

XİN-dən verilən xəbərə görə, görüş zamanı, ikitərəfli və çoxtərəfli münasibətlərin müxtəlif aspektləri, o cümlədən iki ölkə arasında iqtisadi, təhlükəsizlik, yüksək texnologiyalar, təhsil, turizm, energetika, nəqliyyat və s. istiqamətlərdə əməkdaşlığın cari vəziyyəti və perspektivləri, həmçinin Qəzzada vəziyyət barədə geniş müzakirə aparılıb.

Nazir Ceyhun Bayramov qarşı tərəfə post-münaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycan-Ermənistan normallaşma prosesi barədə məlumat verib.

Ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi çərçivəsində iki ölkə arasında əməkdaşlıq üçün əlavə imkan yarandığı qeyd edilib. Görüş çərçivəsində habelə digər beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Qayıdış Qarabağda turizmi canlandırır

## Layihə

***Azərbaycan dövləti 3 ildən artıqdır ki, tarixi zəfərin növbəti səhifəsi olan "Böyük Qayıdış" Proqramını həyata keçirir. Şəhər və kəndlər yenidən qurulur, həmin ərazilərdə elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturlar yaradılır. Bu məqsədlə ötən 3 ildə dövlət büdcəsindən 12 milyard manat vəsait xərclənib. Cari ilin I yarısında isə Azərbaycan hökuməti işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasına və bərpasına 1 milyard 953,5 milyon manat vəsait yönəldib. Maliyyə Nazirliyindən verilən məlumata görə, bu, 2024-cü ilin dövlət büdcəsində sözügedən məqsədlə nəzərdə tutulmuş 3 milyard 825 milyon manat vəsaitin 51,1 faizi deməkdir.***




Həmin vəsait sifarişçi təşkilatların müvafiq layihələr üzrə təqdim etdiyi kassa sifariş sənədləri əsasında istifadə olunub. Dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri üzrə icraçıların verdiyi sifarişlər əsasında 1 milyard 64,9 milyon manat maliyyələşdirilmə həyata keçirilib ki, bu da cari ildə həmin məqsəd üçün nəzərdə tutulmuş xərclərin 42,9 faizinə bərabərdir və ötən ilin eyni dövrü ilə müqayisədə 40,4 faiz çoxdur.

Xatırladaq ki, "Böyük Qayıdış" Azərbaycanın 2030-cu ilədək müəyyən edilmiş beş Milli Prioritetindən biridir. Bu məqsədlə qəbul və icra olunan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində nəzərdə tutulmuş bütün hədəflər öz axıcı ritmi ilə yerinə yetirilməkdədir.

Qeyd edilən hədəf müddətində 34 min 500 ailənin doğma torpaqlarında layiqli şəkildə yaşayışı təmin ediləcək, həmin ərazilərdə iqtisadi inkişaf layihələri icra olunacaq, insanların sahibkarlıq və kənd təsərrüfatı fəaliyyətləri ilə məşğul olması, digər irimiqyaslı sərmayə proqramlarının həyata keçirilməsi, həmin bölgənin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası istiqamətində ardıcıl addımlar atılacaqdır.

"Böyük Qayıdış"la Qarabağda turizm sektoru da canlanır. Müşahidələr göstərir ki, Qarabağın işğaldan azad edilməsi Azərbaycanda turizm bölgələrinə tələbatı dəyişib. Bir zamanlar turistlər daha çox şimal və cənub bölgələrinə üstünlük verirdilərsə, son illər əsrarəngiz və gözəl təbiətə malik Qarabağa turistlərin marağı artıb. Hətta bu ərazilərə fərdi avtomobilləri ilə səyahət edən şəxslərin sayında da artım var. Məsələn, son vaxtlar Şuşa və Laçın şəhərlərinə fərdi avtomobil ilə turist səfərlərinin sayında artıb baş verib. Rəsmi məlumata əsasən, təkcə ötən ay Qurban bayramı ilə əlaqədar qeyri-iş günlərində (15.06.24-19.06.24) Şuşa şəhərinə 2650 avtomobil ilə 12 528 nəfər, Laçın şəhərinə isə 2 296 fərdi avtomobil ilə 8 330 nəfər səfər edib. Şuşaya səfər edənlərin 1779 nəferi, Laçına səfər edənlərin isə 709 nəfəri hotellərində qonaqlayıb. 2023-cü il dekabrın 27-dən 2024-cü il iyunun 19-dək Şuşa şəhərinə ümumilikdə 72 298 nəfər səfər edib. Bu il aprelin 27-dən iyunun 19-dək Laçın şəhərinə səfər edənlərin sayı isə 42 670 nəfər olub.

> *Səyahət edənlərin çoxu öz dədə-baba ocaqlarını, doğma yurdlarını görmək istəyənlərdir*

> *Yaxın zamanda Qarabağ ərazisində Milli parkların yaradılması da gündəmdədir*

Qeyd edək ki, Laçın şəhərinə giriş 2 yoxlanış-nəzarət məntəqəsi (Şuşa və Güləbird postları) vasitəsilə həyata keçirilir.Qeyd edilən tarixlər üzrə Şuşa postundan 5673 avtomobil ilə 15839 nəfərin, Güləbird postundan isə 9937 avtomobil ilə 26831 nəfərin keçidi təmin edilib.

■ **Mövzu ilə bağlı turizm üzrə eksperti Ceyhun Aşurov da bildirib ki, hazırda turistlərin böyük əksəriyyəti işğaldan azad olunmuş ərazilərə səyahət edirlər:**

"Məlumdur ki, aidiyyəti qurumlar tərəfindən bu bölgələr üçün müəyyən marşrutlar təyin olunub və beləliklə, artıq bir neçə günlük turlar təşkil edilir. Ölkə daxilində həmin ərazilərə böyük maraq var. Bura səyahət imkanları artdıqca insanlar o bölgələri görmək üçün can atırlar. Təsadüfi deyil ki, ötən dəfə bayram ərəfəsində 5 minə yaxın insan öz şəxsi maşını ilə, 20 minə yaxın turist isə digər vasitələrlə bu ərazilərə səyahət edib. Əsasən Laçın, Kəlbəcər, Şuşa, Xankəndi şəhərlərinə üstünlük verilir. Azərbaycan vətəndaşları da daxil olmaqla, xüsusi icazə üçün xeyli sayda şəxs müraciət edib".

Ekspert həmçinin qeyd edib ki, səyahət edənlərin çoxu öz dədə-baba ocaqlarını, doğma yurdlarını görmək istəyənlərdir: "Qalan səyahətçilər isə bizim digər bölgələrimizin sakinləridir ki, Qarabağ torpaqlarını yaxından görmək, müharibədən sonrakı dövrlə tanış olmaq istəyirlər. Onu da nəzərə alaq ki, işğaldan azad olunmuş bölgələrdə hələ kifayət qədər qalmaq üçün yerlər inşa olunmayıb. Daha çox turistin orada yerləşdirilməsi, qidalanması ilə bağlı məsələlər elə də asan deyil. Buna görə də orada qısamüddətli turlar daha çox təşkil edilir. Ümumi götürdükdə isə ölkədə turizm aktivliyi kifayət qədərdir".

Azərbaycan Hotellər və Restoranlar Assosiasiyasının İdarə Heyətinin sədri Samir Dübəndi bildirib ki, hazırda azad olunmuş ərazilərdə turizm fəaliyyətlərini təmin edən infrastruktur - nəqliyyat, yerləşdirmə vasitələri, qidalanma müəssisələri, enerji təchizatı və sair işlər aparılır: "İşğaldan azad edilmiş ərazilərin yüksək turizm potensialı var, burada bir çox turizm ehtiyatları cəmləşib. Diqqət yetirsək görərik ki, Qarabağ ərazi boyunca su hövzələri, meşəli dağlar, mənzərəli məkanlar, kanyonlarla zəngindir. Təbii və antropogen resurslarla zəngin bu ərazilərdə müxtəlif turizm fəaliyyətlərinin inkişafı üçün əlverişli şərait mövcuddur. Balneoji resurslar, tarixi-mədəni abidələr, ləziz mətbəx, folklor və s. bu sırada sadalamaq olar".

Ekspertin fikrincə, Azərbaycanın müxtəlif beynəlxalq tədbirlərə ev sahibliyi etməsi turizm sənayesinin inkişafına yeni nəfəs verir: "Azərbaycan təxminən 15 il öncə turizm sənayesinin inkişafına demək olar ki, ikinci nəfəs verdi. Ölkədə turizm infrastrukturunun yaradılması ilə yanaşı, irimiqyaslı, möhtəşəm tədbirlərin keçirilməsinə başlanıldı. Bunlar olduqca vacib və zəruri addımlar idi. Belə tədbirlər ölkənin tanıdılmasında, yeni turizm destinasiyası kimi formalaşmasında xüsusi rol oynayır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

S.Dübəndi onu da vurğulayıb ki, yaxın zamanda Qarabağ ərazisində Milli Parkların yaradılması da gündəmdədir: "Hesab edirəm ki, xüsusi mühafizə olunan təbii ərazilərin yaradılması vacibdir. Bu ərazilərdə ciddi ekoloji reqlamentlərə riayət edərək ətraf mühiti, bioloji müxtəlifliyi qoruyaraq ekoturizm fəaliyyətlərinin yaradılması istiqamətində vacib mərhələ hesab edilə bilər. Artıq Azərbaycan Ekoturizm Assosiasiyasının fəalları bir neçə dəfə Qarabağa ezam edilib və doğma yurdda ekoturizm potensialının qiymətləndirilməsi üçün müvafiq işlərin aparılmasına start veriblər. Əminəm ki, Azərbaycan yüksək ekoloji mədəniyyət nümayiş edərək yaxın gələcəkdə dünyaya ekoturizm destinasiyaları ilə də açıla biləcək".

■ **Mövzu ilə bağlı Dövlət Turizm Agentliyindən bildirilib ki, azad edilmiş ərazilərdə turizm əsas iqtisadi fəaliyyət sahələrindən biri kimi müəyyənləşdirilib:**

"Qarabağ bölgəsinin çox zəngin turizm potensialı var və bu potensial imkan verir ki, biz bu əraziləri Azərbaycanın əsas turizm zonalarından birinə çevirək. Azad edilmiş torpaqlarda turizm əsas iqtisadi fəaliyyət sahələrindən biri kimi müəyyənləşdirilib. Bunun üçün orta müddətli dövrdə işğaldan azad edilmiş əraziləri daxili turizm üçün əlçatan və keyfiyyətli turizm destinasiyasına çevirmək, perspektiv imkanlardan effektiv istifadəyə nail olmaq əsas strateji baxış olaraq müəyyən edilmişdir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın XII məqsədi üzrə "Turizm sektorunun perspektiv inkişaf imkanlarından effektiv istifadəyə nail olmaq" müəyyən edilmişdir.

Bununla yanaşı, proqramın hədəf göstəricilərində turizm sektorunun inkişafı əsas infrastruktur layihələrinə əlavə edilmişdir. Böyük Qayıdışa dair I Dövlət Proqramı əsasında Dövlət Turizm Agentliyinin "İşğaldan azad edilmiş ərazilərdə turizmin inkişafı ilə bağlı Fəaliyyət Planı" təsdiq edilmişdir. İnstitusional inkişaf çərçivəsində cənab Prezidentin Dövlət Turizm Agentliyinin strukturunun təkmilləşdirilməsi haqqında Fərmanına əsasən işğaldan azad edilmiş ərazilər üzrə "Qarabağ Regional Turizm İdarəsi"nin yaradılmasını qeyd edə bilərik. Cənab Prezidentin Sərəncamı ilə iyun ayında "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğunun yaradılması və Dövlət Turizm Agentliyinin tabeliyinə verilməsi bu sahəyə ayrılan diqqətin bariz nümunəsidir. Bütövlükdə, Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərin turizm imkanları qiymətləndirilir və turizm potensialına uyğun olaraq müvafiq tədbirlər həyata keçirilir".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# "Qarabağ"ın bəstəkarının hüquqları bərpa edilib



**"Qarabağ" ("Anadır arzulara hər zaman Qarabağ") adlı mahnının sözlərinin və musiqisinin Azərbaycan bəstəkarı Bəhram Nəsibova məxsus olması və erməni ifaçı Gor Yepremyan tərəfindən B.Nəsibovun müəllif hüquqularının pozulması "Youtube" rəhbərliyi və "Youtube Music", "Spotify", "Apple Music", "Amazon Music", "Deezer" və digər rəqəmsal musiqi platformaları tərəfindən öz təsdiqini tapmış və bəstəkarın pozulmuş hüquqları bərpa edilib.**

Bu barədə Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi birgə məlumat yayıb. Bildirilib ki, görülmüş işlərin nəticəsi olaraq Agentliyin dəstəyi ilə bəstəkar Bəhram Nəsibovun vərəsəsi Adil Nəsibovun adından Agentlikdə akkreditasiyadan keçmiş "Rəqəmli və Audiovizual Yayım Sənayesi" İctimai Birliyinin (RAYS) - https://rays.az/ texniki yardımı ilə "Youtube" administrasiyasına edilmiş müraciət əsasında B.Nəsibovun müəllif hüquqlarının pozulması səbəbindən Gor Yepremyanın ifa etdiyi "Sirun jan" adlı mahnı "Youtube" tərəfindən "Youtube" platformasından və "CD BABY" distribütor şirkəti tərəfindən isə "Youtube Music", "Spotify", "Apple Music", "Amazon Music", "Deezer" və digər rəqəmsal musiqi platformalarından silinib.

Qeyd edilib ki, Harout Pamboukjianın ifa etdiyi "Aghji jan" mahnısının musiqisi də Azərbaycan bəstəkarı B.Nəsibova məxsus olan "Qarabağ" ("Anadır arzulara hər zaman Qarabağ") adlı mahnının musiqisi ilə üst-üstə düşdüyü üçün həmin mahnı "Youtube" tərəfindən "Youtube" platformasından silinib.

# XİN arasında siyasi məsləhətləşmələr keçirilib



**İyulun 23-də Moskvada Azərbaycan Xarici İşlər Nazirliyi ilə Rusiya Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.**

XİN-dən "Qafqazinfo"ya verilən məlumata görə, məsləhətləşmələrdə nümayəndə heyətlərinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Samir Şərifov, qarşı tərəfdən isə xarici işlər nazirinin müavini Mixail Qaluzin rəhbərlik edib.

Məsləhətləşmələr zamanı, Azərbaycan-Rusiya ikitərəfli əməkdaşlığının mövcud vəziyyəti və inkişaf perspektivləri, gündəlikdə duran və qarşılıqlı maraq kəsb edən beynəlxalq və regional məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Görüşdə iki ölkə liderləri arasında qarşılıqlı etimada əsaslanan və ikitərəfli gündəliyi formalaşdıran yüksəksəviyyəli siyasi dialoqun dövlətlər arasında müttəfiqlik qarşılıqlı fəaliyyətin əsasını təşkil etməsi məmnunluqla vurğulanıb.

Siyasi məsləhətləşmələr zamanı iki ölkə arasında, həmçinin iqtisadi-ticarət, mədəni-humanitar, eləcə də beynəlxalq və regional təşkilatlar və formatlar çərçivəsində əməkdaşlıq və digər məsələlər müzakirə olunub, ikitərəfli müqavilə-hüquq bazası və baxılmaqda olan layihələr nəzərdən keçirilib.

Həmin gün, nazir müavini Samir Şərifov ilə Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko arasında da görüş keçirilib. Görüş zamanı beynəlxalq və regional təhlükəsizlik məsələləri, eləcə də hər iki ölkənin iştirak etdiyi regional formatlar çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Bununla yanaşı, S.Şərifov ilə Rusiya Federasiyası Prezidentinin xüsusi nümayəndəsi, Xəzər dənizi məsələləri üzrə danışıqlarda Rusiya nümayəndə heyətinin rəhbəri Mixail Petrakov arasında keçirilmiş görüşdə Xəzər məsələləri üzrə əməkdaşlığın hazırki vəziyyəti və inkişaf dinamikası müzakirə olunub.

## XƏBƏRİNİZ OLSUN...



■ Ukrayna tərəfi Rusiya ilə danışıqlara hazırdır. Bunu Çinə səfəri zamanı Ukrayna xarici işlər naziri Dmitri Kuleba çinli həmkarı Van İ ilə görüşündə bildirib. Onun sözlərinə görə, aparılacaq müzakirələr rasional və əməli nəticələrə malik olmalıdır.

■ ATƏT-in uzunmuddətli müşahidəçiləri seçkilərlə bağlı Azərbaycana gələcək. Bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib. O qeyd edib ki, nümayəndə heyəti bu ayın sonunda Azərbaycanda olacaq.

■ Gürcüstanın Dövlət Təhlükəsizlik Xidməti hakim "Gürcü Arzusu" partiyasının təsisçisi və fəxri sədri, milyarder Bidzina İvanişviliyə qarşı sui-qəsd də daxil olmaqla bir sıra cinayət əməllərinə hazırlıqlarla bağlı faktlar əsasında araşdırmalara başlayıb. Bu barədə Gürcüstan DTX məlumat yayıb.



■ Azərbaycanda seçicilərin daha çoxu qadınlardır. Bu barədə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bildirib. O, qeyd edib ki, 40 minə yaxın komissiya üzvünün də əksəriyyəti qadınlardır: "Biz səsvermə günü qadın seçicilərin aktivliyinə önəm veririk. Bu məsələdə qadınların rolu kişilərə nisbətdə daha yüksəkdir".

■ Dünya okeanına hər il 11 milyon ton mikroplastik atılır. Bu tullantıların əksəriyyəti plastik torlar və digər balıqçılıq ləvazimatlarından ibarətdir. Bu barədə Beynəlxalq Vəhşi Təbiət Fondu məlumat yayıb. Mütəxəssislərin fikrincə, tullantıların təxminən 10 faizi qanunsuz balıq ovu ilə məşğul olan şəxslərin atdığı torlarıdır.

■ Fransa Prezidenti Emmanuel Makron prezidentlik müddətinin sonuna qədər respublikaya rəhbərlik edəcəyini bildirib. Dövlət başçısı bu barədə "France 2" telekanalının efirində danışıb. "Fransızlar ikinci dəfə bu vəzifəni mənə həvalə ediblər və mən öz vəzifəmi sona qədər yerinə yetirəcəyəm", - Makron vurğulayıb.



■ Ermənistan Hindistan silahlarının ən böyük alıcısına çevrilib. Hindistan Maliyyə Nazirliyinin parlamentə təqdim etdiyi iqtisadi hesabatda bu barədə məlumat yer alıb. Hindistan Müdafiə Nazirliyinin məlumatına görə, İrəvanın 2024-2025-ci maliyyə illəri üçün Dehlidən silah və hərbi texnika almasına dair imzaladığı müqavilələrin həcmi 600 milyon dollara çatıb.

■ Nepalda göyərtəsində 19 nəfər olan təyyarə qəzaya uğrayıb. Hadisə nəticəsində hava gəmisinin komandiri yaralanıb. Axtarış nəticəsində indiyədək yalnız 5 nəfərin meyiti tapılıb. Hökumətdən xilasetmə işlərinin davam etdirildiyi bildirilsə də, qəzanın səbəbləri ilə bağlı açıqlama verilməyib.

# Tramp, yoxsa Harris?





***ABŞ Prezidenti Co Bayden Ağ ev uğrunda mübarizədən çəkildiyini açıqladıqdan sonra indi bütün diqqət vitse-prezident və Demokratlar Partiyasının əsas təmsilçisi olmağa ən real namizəd Kamala Harrisin üzərinə yönəlib. Donald Trampa sui-qəsd cəhdinin yaratdığı siyasi zəlzələnin nəticələri ilə bağlı isə müxtəlif proqnozlar verilir. Bir çoxları Harrisin Trampa qalib gəlmək şanslarının az olduğu qənaətindədir. "Blomberq" nəşrinin analizinə görə, Kamala Harrisin Demokratlardan prezidentliyə namizədliyini irəli sürmək üçün kifayət qədər nümayəndə dəstəyi var. "Associated Press"in qeyri-rəsmi hesablamalarına görə, Harris bazar ertəsi gecəsi 1976 nümayəndə sehrli sayını keçərək ehtimal olunan namizəd statusunu möhkəmləndirib. Dəstəklərini vəd edən nümayəndələr onun namizədliyini dəstəkləmək məcburiyyətində olmasalar da, bu, mühüm nailiyyətdir. Əhəmiyyətli müxalifətin olmaması da vitse-prezidentin partiyada üstünlüyə malik olduğunu təsdiqləyir.***

## Aktual

"Mən fəxr edirəm ki, partiyamızın namizədi olmaq üçün lazım olan geniş dəstəyi qazanmışam. Kaliforniyanın bir qızı kimi mən fəxr edirəm ki, doğma ştatımın nümayəndə heyəti mənə uğur qazanmağa kömək etdi," - Harrisin kampaniya bəyanatında deyilir.

Prezident Sh Biden bazar günü namizədliyini geri götürdüyünü elan etdikdən qısa müddət sonra 2020-ci ildə əsas rəqibi olan Kamala Harrisi "varisi" adlandırıb. Harris tez bir zamanda keçmiş prezident Bill Klinton və Nümayəndələr Palatasının keçmiş spikeri Nensi Pelosinin dəstəyini qazanıb. Harris həmçinin namizədliyini elan etdiyi ilk 24 saat ərzində rekord məbləğdə 81 milyon dollar toplayıb.

Nümayəndələr gələn həftələrdə öz səslərini rəsmiləşdirəcəklər. Bazar ertəsi günü partiya liderləri avqustun 7-dək namizədin rəsmi olaraq irəli sürülməsi üçün onlayn səsvermə prosesinin planını hazırlayıblar.

İndi Harris vitse-prezidentliyə namizədini seçməlidir. Şayiələrə görə, bu şəxs Pensilvaniyadan Coş Şapiro, Şimali Karolinadan Roy Kuper, Kentukkidən Endi Beşar və Minnesotadan Tim Uolz, həmçinin Arizonadan senator Mark Kelli ola bilər.

**Harrisin zəif tərəfləri var, o, vəzifədə olduğu müddətdə tez-tez kadr dəyişikliyi aparır. Bu yaxınlarda CBS News/YouGov sorğusu Harrisin reytinqinin Baydendən daha yüksək olduğunu göstərib, lakin o, hələ də ölkə daxilində Trampdan geridədir.**

Harrisin xarici siyasət kursunda hansı məqamlara üstünlük verəcəyi də ən çox müzakirə edilən mövzulardandır. «Politico» nəşri yazır ki, Harris, çox güman ki, Rusiya və Çinə qarşı sərt mövqe nümayiş etdirəcək. Əksər məsələlərdə Harris, ehtimal ki, prezident Co Baydenin xarici siyasət xəttini davam etdirəcək. Harris administrasiyası Rusiya ilə silahlı münaqişədə Ukraynaya güclü dəstək verməyə davam edəcək və həmçinin Asiya-Sakit okean regionunda ittifaqları gücləndirəcək. O, Birləşmiş Ştatların İsrailə və Yaxın Şərqdəki digər Amerika müttəfiqlərinə yardım göstərməyə davam etməsini təmin etməyə çalışacaq.

"Harris Amerika seçicilərinin əksəriyyətini dinləməli və davamlı atəşkəs və girov mübadiləsinə nail olmaq üçün administrasiyanın ixtiyarında olan hər vasitədən istifadə etməlidir", - Bayden administrasiyasının keçmiş üzvü Lily Greenberg Call deyib. Analitiklər deyir ki, Harrisin müəyyən məsələlərdə, o cümlədən Səudiyyə Ərəbistanı, Hindistan və Türkiyə ilə bağlı sərt mövqeyi Yaxın Şərq və Asiyadakı müttəfiqləri ilə əlaqələrini çətinləşdirə bilər.

Senata qoşulmazdan əvvəl Harris karyerasının çox hissəsini hüquq-mühafizə orqanlarında keçirib. Vitse-prezident vəzifəsinə gələndə o, çox az xarici siyasət təcrübəsinə malik idi və Pentaqon və NATO-da işləyən Cim Taunsend-in dediyi kimi, əsasən ənənəçi olan müşavirlərinə etibar etmək məcburiyyətində qalıb.

Harris bəzən beynəlxalq görüşlərdə prezidentin səlahiyyətlərini yerinə yetirmək məcburiyyətində qalıb. O, Baydenin yerinə 2023-cü ildə ASEAN sammitində iştirak edib. Avropalı müttəfiqlər üçün əhəmiyyətli olan 2022-ci ildə Münhen Təhlükəsizlik Konfransında Baydenin yerində danışıb və burada Rusiya hərbi xüsusi əməliyyat keçirməyə hazırlaşarkən Ukrayna prezidenti Vladimir Zelenskiyə dəstəyini ifadə edib.

Harris haqqında sərbəst danışmaq üçün adının çəkilməsini istəməyən keçmiş administrasiya rəsmisi, "O, böyük xarici siyasət təcrübəsi olan prezident Baydenin rəhbərliyi altında dörd il öyrənməyə sərf etdi və getdikcə ABŞ-ı beynəlxalq səhnədə təmsil edən liderlik rollarını öz üzərinə götürür" deyib.

Senatda işlədiyi dörd il ərzində Harris Senatın Kəşfiyyat və Daxili Təhlükəsizlik komitələrində çalışıb və komitə işinə "çox ağıllı" yanaşmasına görə həmkarlarının tərifini qazanıb. Senator kimi Harris 2017 və 2018-ci illərdə Əfqanıstan, İraq, İordaniya və İsrailə çoxsaylı səfərlər edib.

Bayden kimi, Harris də Rusiyaya qarşı mübarizədə Ukraynanın açıq tərəfdarı olub. Ona görə də onun Baydenin bu sahədəki siyasətini davam etdirəcəyi gözlənilir. İyun ayında Harris ABŞ-ı Ukrayna sülh sammitində təmsil edib, Zelenski ilə altıncı görüşü olub. O, Kiyevə yardım göstərməkdə transatlantik əməkdaşlığın tərəfdarıdır.

**Bu il NBC News-a verdiyi müsahibədə Harris deyib ki, döyüşlər davam etdikcə Ukrayna Vaşinqtonun dəstəyinə arxalana bilər. "Ukraynanın bizim dəstəyimizə ehtiyacı var və biz bunu təmin etməliyik" deyib.**

Builki Münhen Təhlükəsizlik Konfransında çıxış edən Harris Bayden administrasiyasının "lazım olduğu müddətcə" Ukraynanı dəstəkləmək öhdəliyini bir daha təsdiqləyib. O, həm də Vladimir Putinin kəskin tənqidçisidir.

Bu yaxınlarda o, Trampı ABŞ-ı NATO-dan çıxaracağı ilə bağlı əvvəlki bəyanatlarına görə tənqid edib. İyulun 11-də Şimali Karolinada seçki kampaniyası zamanı Harris deyib: "Donald Tramp Putini qucaqlayır. Bu, təkcə bu gün baş vermir. Bu, Trampın NATO-dan çıxmaqla hədələməsindən və Putini müttəfiqlərimizə hücum etməyə çağırmağa başlayandan bəri baş verir".

İsraillə bağlı Harris ikidövlətli həll yolunu müdafiə edir və İbrahim razılaşmalarını dəstəkləyir.

Açıqca, Harris mart ayında dərhal atəşkəsə çağıran ilk administrasiya liderlərindən biri idi. O, Qəzzadakı durumu və münaqişəni "mülki əhali üçün humanitar fəlakət" adlandırıb.

ABŞ-nin müttəfiqlərinə silah satışı ilə məşğul olan keçmiş Dövlət Departamentinin rəsmisi Josh Paul, Harrisin İsraillə bağlı Baydendən daha az "çevik və möhkəm" olduğunu söyləyir. Bununla belə, o, etiraf edir ki, yaxın gələcəkdə Amerika prezidenti İsraillə bağlı siyasəti kökündən dəyişə bilməyəcək. Harris Birgə Hərtərəfli Fəaliyyət Planını və 2015-ci ildə İranın nüvə proqramını məhdudlaşdıran sazişi dəstəkləyib. O, həmçinin 2020-ci ilin yanvarında iranlı general Qasım Süleymaniyə vurulan zərbəni pisləyib və İran liderlərinə və hədəflərinə qarşı gələcək hərbi əməliyyatları qadağan edən uğursuz qanun layihəsinin təşəbbüskarlarından olub. Harris, qondarma erməni soyqırımını dəstəkləyən əsas qanunvericilərdən biri kimi də yadda qalıb. Prezident seçilərsə, Harris çox güman ki, Bayden administrasiyasının Çinlə bağlı sərt siyasətini davam etdirəcək. 2020-ci ildə vitse-prezident Mayk Pens ilə debatda o, Trampın ticarət müharibəsində uduzduğunu söyləyib. O, həmçinin bildirib ki, Trampın tarifləri Amerika iqtisadiyyatına zərər verir və ABŞ-Çin münasibətlərində tarazlığın bərpasına kömək etmir. Administrasiyanın digər üzvləri kimi Harris də Pekinlə münasibətlərdə "riskləri azaltmağın" tərəfdarıdır. Bu siyasət Qərb iqtisadiyyatlarının Çindən asılılığını azaltmaq üçün tədbirləri ehtiva edir.

**Harrisin rəhbərlik etdiyi administrasiya çox güman ki, Tayvana qeyri-rəsmi dəstəyini davam etdirəcək, xüsusən də Pekin hərbi təhdidlərini gücləndirdiyi bir vaxtda. 2022-ci ilin sentyabrında o deyib: "Biz uzunmüddətli siyasətimizə uyğun olaraq Tayvanın azadlığını dəstəkləməyə davam edəcəyik".**

Senator kimi Harris tək Çini deyil, həm də Şərqi Asiyanı yaxından izləyir, Myanmada insan haqlarını qorumaq üçün müntəzəm olaraq qanun layihələri təqdim edir və ya həmmüəlliflik edirdi. aAnası hindistanlı olan Harris də mütəmadi olaraq Hindistan hökumətini tənqid edib və Kəşmir diasporunun üzvləri ilə görüşüb.

Göründüyü kimi, Ağ evin yeni sahibinin kimliyi dünya siyasətinə birbaşa təsir edəcək. Seçim tək amerikalıların yox, həm də Vaşinqtondan asılı hala gələn bölgələrin gələcək inkişafının seçimidir desək yanılmarıq.

*✍ Vüsal Tağıbəyli*



# Hər kəsin gözlədiyi əməkhaqqı artımı

***Azərbaycanda minimum əməkhaqqının artırılması istiqamətində müzakirələr gedir. Ehtimallara görə, bununla bağlı qərar gələn ilin əvvəlində qəbul olunacaq. Nəticədə 700 mindən artıq vətəndaşın gəliri artacaq.***

## Sosial

**■ Mövzu ilə bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bildirib ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən minimum əməkhaqqının artırılması ilə bağlı təkliflər hazırlanır və bu təkliflər noyabrın birinə qədər təqdim olunacaq.**

Daha sonra hökumətdə müzakirə olunduqdan sonra minimum əməkhaqqının artırılması ilə bağlı qərar qəbul ediləcəyi gözlənilir. Onun sözlərinə görə, ilkin gözlənti növbəti ilin yanvar ayından etibarən minimum əməkhaqqının artması ilə bağlıdır: "Artım faizinin ikirəqəmli olacağı gözlənilir. Son illər orta aylıq əməkhaqqıda ikirəqəmli artım qeydə alınıb. Bu baxımdan biz minimum əməkhaqqı artırılan zaman həm 2023 və 2024-cü illərdə normal, orta aylıq əmək artım faizinin nəzərə alınması, eyni zamanda inflyasiyanın bu kontekstdə indeksləşdirilməsini təklif edirik. Praktiki olaraq bu, minimum əməkhaqqı daha yüksək artımların əldə edilməsinə gətirib çıxara bilər. Nəticədə 700 mindən artıq vətəndaşımızın əməkhaqqısının artmasına, birbaşa onların gəlirlərinə təsir göstərə bilər. Nəzərə alsaq ki, minimum əməkhaqqı alan vətəndaşlarımız daha çox sosial tələbə təminatına ehtiyacı olan vətəndaşlarımızdır. Bu da onların sosial təminatının daha da gücləndirilməsinə xidmət etmiş olacaq. Bütövlükdə bu istiqamətdə müzakirələr davam edir və təkliflərin hazırlanması və yeni büdcə paketinin müzakirə olunması və nəticə etibarən minimum əmək haqqının artmasına imkan verəcək. Konkret məbləğlə bağlı bu ilin payız aylarında müzakirələr nəticəsində əldə edilən rəqəmlə bağlı məlumatı bölüşmək mümkün olacaq".

**■ Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Pərviz Heydərov deyib ki, minimum əməkhaqqı - iqtisadi, sosial şərait nəzərə alınmaqla qanunvericiliklə ixtisassız əməyə və xidmətə görə verilən aylıq ən aşağı əməkhaqqı məbləğidir:** "Onun dəyişdirilməsi həm dövlət, həm də özəl sektorda çalışanların maaşlarına təsir edir. Belə ki, birincisi, ölkə üzrə heç bir işəgötürən bundan aşağı maaş verə bilməz, ikincisi isə onun əsasında dövlət sektorunda, yəni büdcədən maliyyələşən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşları müəyyən edilir. Söhbət, maaşları 19 pilləli vahid tarif cədvəli ilə tənzimlənən təqribən 700 min nəfərdən çox işçidən gedir. Son 5 ildə sözügedən göstərici 2,7 dəfə artırılaraq 130 manatdan 345 manata çatdırılıb. 2019-cu ildə iki dəfə artırılsa da, sonuncu dəfə ötən il, yəni 2023-cü ildə yüksəldilib. Nəticədə də əhalinin gəlirləri qeyd olunan illər ərzində əvvəlki illərə nisbətən, daha çox və sürətlə artıb. Ümumiyyətlə, minimum əməkhaqqının artırıldığı illər sırasında 2019-cu il xüsusilə seçilib. Həmin ilin mart və sentyabr aylarında 2 sosial paket icra edilməklə minimum əmək haqqı 130 manatdan 250 manata qaldırıldı. Sözügedən göstərici ilk dəfə olaraq ölkə üzrə müəyyən edilən yaşayış minimumu göstəricisini keçdi. Hərçənd, neçə illər idi hökumət buna çalışırdı. Beş ildir ki, minimum əməkhaqqı yaşayış minimumu, həmçinin ehtiyac meyarı göstəricisindən yüksək olmaqla böyük məna kəsb edir. Sözügedən göstərici ilə bağlı yenə hər şey tələb olunan vəziyyətdə deyil. Yəni, onun həddi ilə yanaşı, əhəmiyyəti, rolu bir daha artırılmalıdır.

Qeyd olunan göstərici 1 yanvar 2023-cü il tarixdən 15 faiz deyil, daha çox, yəni 20-25 faiz də artırıla bilərdi. Ölkəmiz 2004-cü ildə Avropa Sosial Xartiyasına qoşularkən minimum əməkhaqqını orta aylıq əməkhaqqı səviyyəsinin 60 faiz hissəsinə çatdırmağı öhdəlik götürüb.

Bu səbəbdən də 2012-ci ildə qəbul edilən "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında 2020-ci ilə qədər sözügedən məsələ əsas hədəf olaraq seçilmişdi. İş ondadır ki, bu məsələdə düşünülməmiş addım atmaq da olmaz. Minimum əməkhaqqının əsassız olaraq artımı, ilk növbədə, dövlət sektorunda çalışan 700 min nəfərdən çox işçinin aylıq vəzifə maaşlarını inflyasiyanın yeminə çevirə bilər".

*"Artım faizinin ikirəqəmli olacağı gözlənilir*

*Ölkəmiz minimum əməkhaqqını orta aylıq əməkhaqqı səviyyəsinin 60 faiz hissəsinə çatdırmağı öhdəlik götürüb*

*✍ Sevinc*

# Magistrlar da təhsil müəssisəsini dəyişə bilər?



**Magistratura səviyyəsində təhsil alan tələbələrin köçürülməsi qaydaları açıqlanıb. Bu barədə Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi tərəfindən ali təhsil müəssisələrinin tələbələrinin köçürülməsinə dair ən çox soruşulan suallara cavab verilərkən bildirilib.**

Qeyd edilib ki, magistratura səviyyəsində tələbələrin öz ixtisası (ixtisaslaşması) üzrə təhsil müəssisəsini dəyişməsi o şərtlər aparılır ki, həmin tələbənin magistraturaya qəbul imtahanında topladığı bal, dəyişmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas (ixtisaslaşması) üzrə minimal keçid balından (tələbənin magistraturaya qəbul olunduğu il üzrə) çox olsun.

Qeyd 1: Magistratura səviyyəsində təhsil alan tələbələrin ixtisaslarını (ixtisaslaşmasını) dəyişdirməsinə yol verilmir.

Qeyd 2: Magistratura səviyyəsində normativ təhsil müddətindən artıq (müddətli həqiqi hərbi xidmət dövrü daxil deyil) müddətdə təhsil alan tələbələrin təhsil müəssisəsini və təhsilalma formasını dəyişdirməsinə yol verilmir.

# Polkovnik Samir Həziyev həbs edildi

**N saylı hərbi hissənin komandiri, polkovnik Həziyev Samir Mətləb oğlu həbs olunub. Bu barədə Trend-in sorğusuna cavab olaraq hərbi prokurorun böyük köməkçisi - Hərbi Prokurorluğun Mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev deyib.**



"Naxçıvan Muxtar Respublikasında yerləşən N saylı hərbi hissənin komandiri, polkovnik Həziyev Samir Mətləb oğluna Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 341.2.3-cü maddəsi ilə ittiham elan edilməsi və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun təqdimatına əsasən, barəsində Bakı hərbi məhkəməsinin qərarı ilə həbs qətimkan tədbirinin seçilməsi faktını təsdiq edirəm.

Hazırda istintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi təmin ediləcək", - o qeyd edib.

# İndi söz Rusiyanındır

***Siyasi analitik Tahir Cəfərli hafta.az üçün budəfəki söhbətimizdə Azərbaycanda növbədənkənar parlament seçkilərindən gözləntilərini şərh edib, payızda ABŞ-də gözlənilən prezident seçkilərində Demokratların mümkün namizədi Kamala Harrisi digər respublikaçı namizəd D.Trampla müqayisə edib, İranın yenicə seçilmiş prezidenti Məsud Pezeşkianın ölkənin daxili və xarici siyasətində, xüsusən də soydaşlarımızın hüquqlarının müdafiəsi və Azərbaycanla münasibətlərin normallaşması üçün görə biləcəyi işlərdən və s. danışıb, Ermənistanla sülh sazişinin imzalanması haqda proqnozlarını dilə gətirib.***

## Müsahib

***- Tahir müəllim, Milli Məclisi buraxılması və növbədənkənar seçkilər keçirilməsinə qərar verilməsi haqda çox fikirlər səslənib. Sizin də fikrinizi bilmək oxucular üçün maraqlı olardı...***

- İqtidar üçün yeni növbədənkənar seçkilərin Azərbaycanı gözləyən böyük dünya əhəmiyyətli tədbir olan "COP-29" ərəfəsində keçirilməsinin məqsədi hər şeydən əvvəl bütün dünyaya Azərbaycanda seçkilərin demokratik prinsiplər əsasında keçiriləcəyini göstərməkdir. Odur ki, növbəti parlament seçkilərindən çox şey gözləmək olar.

Növbəti seçkilərdə gerçəkdən əqidəli, vətənpərvər, yüksək səviyyəli insanların deputat seçiləcəyi məsələsi də vacibdir. Çünki bu insanlar ölkənin qarşısına çıxan problemlərin həllində daha yaxından iştirak edə bilərlər. İndiki Milli Məclis deputatlarının çoxunun ictimai həyatda passivliyi də göz qabağındadır...

***- Hazırkı ABŞ Prezidenti Co Baydenin namizədliyini geri çəkməsindən sonra onun da tövsiyəsi ilə Demokratlar partiyasından prezidentliyə namizədin vitse-prezident Kamala Harrisin olacağı gözlənilir. Onun bir siyasətçi kimi göstəricilərini və Tramp üzərində qələbə çalmaq şanslarını necə dəyərləndirirsiz?***

- ABŞ prezidentinin kimliyindən asılı olmayaraq bu ölkənin çox ciddi iqtisadi və siyasi problemləri vardır ki, onların yeganə həlli liberalizmdən uzaqlaşıb ənənəvi ABŞ proteksionizminə qayıtmaqdır. Bütün göstəricilərə görə ABŞ-nin prezidenti proteksionist olmalıdır ki, ölkəni düşdüyü iqtisadi və siyasi böhrandan qurtarsın. Kamala Harrisin iqtisadi bilikləri Trampla müqayisədə faktiki olaraq heçə bərabərdir, çünki bu günə qədər həmin siyasətçi heç bir iqtisadi layihənin həyata keçirilməsində iştirak etməyib. Tramp isə prezidentliyi və ondan sonrakı dövrdə özünü çox ciddi iqtisadçı kimi göstərmişdir. Nəzərə alsaq ki, ABŞ vətəndaşları iki siyasətçini müqayisə etmək üçün statistikaya da əl atırlar, həmin göstəricilərə görə Kamala Trampın yanından belə, keçə bilməz.

Odur ki, demokratlar Trampın qarşısına çıxara biləcəkləri siyasi lider tapa bilmirlər. Trampa qarşı sui-qəsddən sonra faktiki olaraq demokratlar uduzublar. Onlardan seçilən prezidentlər son illərdə 16 milyon müsəlmanın nahaq qanını axıtmışlar. Və budəfəki seçkilərdə keçən seçkilərdə kimi Trampa qarşı demokratlar yenə də əliəyrilik etsələr, ABŞ-də vətəndaş müharibəsi olacaq.

***- Bu arada eks-prezident Barak Obamanın xanımı Mişel Obamanın da mümkün namizədlərdən biri olacağı gözlənilir. Ona necə dəyər verirsiz?***

- Obamanın xanımının prezident ola biləcəyini düşünmək ağlagələsi hal deyil. ABŞ-nin keçmiş birinci ledisinin səviyyəsi evdar qadının səviyyəsindədir. Barak Obama onu seçdirmək istəyir ki, özü ABŞ-ni idarə etsin. Bu da ağıla gələsi deyil.

***- İranın yenicə prezidenti seçilmiş soydaşımız Məsud Pezeşkianın daxili və xarici siyasətində hansı yenilikləri gözləyirsiz?***

- İlk növbədə İranın Prezidentinin nəyisə dəyişəcəyi ilə bağlı illüziyalara uymaq lazım deyil. Onun seçilməsi İran rəhbərliyinin gələcək üçün hazırladığı siyasəti həyata keçirməsi üçün atdığı strateji addımdır.

Bilirsiz, İranın siyasi qazanı qaynayırdı, Təbriz və başqa şəhərlər, Qarabağ azad olandan sonra milli zəmində daha da aktivləşmişdilər. Onlara kənar qüvvələr də təsir edirdi. Bu qaynar qazanın qapağını qaldırıb, buxarı buraxmağı Pezeşkianın üstünə atdılar. O, prezident seçilən kimi, İran sakitləşdi...

İranda bu günə qədər bir prezident dini rəhbərinin göstərdiyi yoldan dönməyib və dönə bilməz də... Azərbaycanlılığından, farslığından, kürdlüyündən asılı olmayaraq prezident ölkəni İranın vətəndaşlıq prinsipi olan "Bütün müsəlmanlar qardaşdır!" devizi əsasında idarə etməlidir. Azərbaycanlı olmasının, bu dildə danışmasının heç bir əhəmiyyəti yoxdur. İranda ən böyük azərbaycanlı elə ali dini lider Ayatolla Xameneidir, dərinə getsək, Mirzə Fətəli Axundovun nəslindəndir. 36 ildir İran onun əlindədir. Fars demişkən "Çi fayda?"..

Təbii ki, prezident olaraq Pezeşkian da istər daxili, istərsə də xarici siyasətdə Xameneinin dediklərini edəcək...

***- Konkret olaraq Cənubi Azərbaycandakı soydaşlarımızın haqlarının müdafiəsi və Azərbaycanla münasibətlərin mümkün qədər normallaşması üçün cənab Pezeşkian hansı işləri görə bilər?***

- Cənubi Azərbaycandakı soydaşlarımızın tələbi Azərbaycan dilində məktəblərin olmasıdır. Bu, əsas tələbidir. Pezeşkian bu tələbi tamlığı ilə yerinə yetirməyəcək. Bununla belə, İran Konstitusiyasının, zənnimcə, 15-ci maddəsini əsas götürüb, Cənubi Azərbaycanda olan məktəblərdə Azərbaycan dilini tədris edəcəklər. İran Konstitusiyasının 15-ci maddəsində deyilir: "İran xalqının rəsmi müştərək dili və xətti farsdır. ...Lakin yerli və etnik dillərin fars dili ilə yanaşı işlənməsi, mətbuat, kütləvi informasiya vasitələrində və milli ədəbiyyatın məktəblərdə tədrisində azaddır...".

Bir sözlə, ola bilsin, Cənubi Azərbaycan məktəblərində Azərbaycan dili tədris olunsun. Ancaq inanmırıq ki, Azərbaycan dili ikinci dövlət dili kimi qəbul olunsun, çünki bu, İranın parçalanması demək olardı. Bir də Pezeşkianın əlində belə səlahiyyət də yoxdur axı.

Bu günə qədər Cənubi Azərbaycanda ana dilində məktəb açılmamağının səbəbkarı da elə özümüzük. Azərbaycanın talış zonasında talış dili, Qubada, Qusarda ləzgi və s. bölgələrdəki digər millətlərin ana dillərində dərs deyilir. Hətta rusdilli məktəblərdə də Dövlət dili isə ölkənin bütün xalqlarını birləşdirir. Vahid bir dövlətin yaranmasına xidmət edir. Şimalı Azərbaycanda dövlət dilinin funksiyası da elə budur. Ümumiyyətlə, İranda insan hüquqları ilə bağlı məsələlərə azərbaycanlıların və yaxud farsların hüquqları çərçivəsində baxmaq gülüncdür. Götürək, seçki hüququnu. Son seçkilər göstərdi ki, İranda milliyyətindən asılı olmayaraq istənilən xalqın nümayəndəsi prezident seçilə bilər. Azərbaycanlının seçilməsi isə dünyaya nümayiş etdirdi ki, İran vətəndaşları arasında milli ayrı-seçkilik yoxdur. İndi dünya bunu demokratiyanın qələbəsi kimi qəbul edir. İran dövlətinin öz vətəndaşlarına qarşı münasibəti başqa ölkələrdən daha ciddi şəkildə fərqlənir. Digər ölkələrdən fərqli olaraq İranda təhsil, səhiyyə pulsuzdur. İran əhlinin çoxu Qərb mənəviyyatını ölkəsində görmək istəmir, yəni dünyanın mənəviyyatsızlığa yönələn liberalizmə qarşıdırlar. Yeri gəlmişkən, ABŞ prezidentliyinə namizəd D.Tramp da bu fikirdədir. İranda hamı üçün bir meyar vardır: İran İslam Respublikasının vətəndaşı. İranda, elə bil, sovet zamanıdır. Və bu ölkədə milli zəmində qarşıdurma olacağına inanmaq gülüncdür.

Bütün deyilənlərə rəğmən İran-Azərbaycan münasibətlərinin yaxşılaşması gözlənilir. Buna səbəbkar Pezeşkianın azərbaycanlı olması yox, Çin-Qazaxıstan Tranzitinin Azərbaycandan keçib İrana getməsidir. İran bunu Çinə görə etdiyindən Azərbaycana qarşı iddialarından geri çəkiləcək, çünki hər şeydən əvvəl ABŞ və AB İrana qarşı sanksiyalarını aradan qaldırmaq üçün Azərbaycandan keçən tranzit yollar İran iqtisadiyyatına böyük səmərələr verə bilər. Ən maraqlısı odur ki, bu tranzitlərin işləməsi regionumuzda daimi sülhün bərpası üçün iqtisadi əsas yaradacaq.

***- Sizcə, dünya birliyi, heç olmasa, bu ilin sonunadək İsraili Qəzzada durdura biləcəkmi?***

- Hər şeydən əvvəl onu deməliyik ki, Qəzzada baş verənlər tək İsrailin əməli deyil. Həmin hadisələr ilk növbədə müəyyən geosiyasi məqsəd daşıyır. Söhbət İsrailə qarşı gedəcək dövlətin cəzalandırılması və Yaxın Şərqin yenidən bölüşdürülməsindən gedir.

Birincisi, İsrail-"HƏMAS" savaşı İranı günahlandırmaq və cəzalandırmaqdan ötrü NATO qoşunlarının bu ölkəyə girməsi üçün şərait yaradır. Odur ki, dünya birliyi təşkilatı hesab edilən BMT min dənə də qərar çıxarsa, bu məsələ açıq qalacaq.

İrandan söz düşmüşkən, bu arada yaxınlığımızda baş verən maraqlı hadisələrdə biri də odur ki, Ermənistanın Avropa Birliyi adıyla NATO qoşunlarını oraya buraxması, İran rəhbərliyini narahat edir. Bu saat regionumuzda sülhün və əmin-amanlığın təminatı Azərbaycanın, Rusiyanın, Qazaxıstan, Çinin, bir də İranın əlindədir. Bu ölkələrin Azərbaycanla bağlı tranzit layihələri işləsə, Cənubi Qafqazdan barıt iyi gəlməyəcək.

Ərəb ölkələri İsrailə qarşı niyə birləşmirlər? Birləşsəydilər, başqa proseslərin şahidi olardıq.

***- Londonda Əliyev-Paşinyan görüşü baş tutmadı. Bunun əsas səbəbini nədə görürsüz?***

- Hər şeydən əvvəl bu çox əhəmiyyətsiz görüş olardı. Bütün dünyaya aydındır ki, Azərbaycan-Ermənistan sülh sazişi 10 noyabr 2020-ci il üçtərəfli razılaşması əsasında Rusiyanın iştiraki ilə olmalıdır. Zəngəzur boşaldılıb, Rusiyanın "FSB"-nə verilməlidir ki, tranzit işləsin. Bunda Türkiyənin də böyük marağı vardır.

Bu günə qədər Zəngəzur boşaldılmayıb. Ermənistan tərəfi də razılaşmaya əməl etmir. Söz Rusiyanındır. Bu saat Nikol Paşinyan İrəvanı da bizim üçün boşaltsa, biz onun təklifinə qol atmayacağıq. Azərbaycan üçün 10 noyabr 2020-ci il razılaşması və Zəngəzur dəhlizində Rusiyanın iştirakı məqsədəuyğundur. Amma qoy, erməniləri yerində oturtmağı ruslar öz üzərinə götürsün, çünki Zəngəzur dəhlizinin işləməsindən ən çox faydalanacaq ölkə Rusiya və Türkiyədir.

***- Belə bir durumda 2024-cü ilin sonunadək Azərbaycanla Ermənistan arasında sülh sazişi olmasa da, heç olmasa hansısa bir çərçivə sazişi imzalanması ehtimalı varmı?***

- İnanmıram ki, başqa bir ölkədə çərçivə sazişi bağlansın. Rusiya məsələdə 10 noyabr 2020 il razılaşmasını əsas götürür. Onun iqtisadi və hərbi vəziyyəti bir az da pisləşsə, hər iki ölkəni masa arxasına gətirib özünün iqtisadi və siyasi maraqlarına uyğun sülh sazişinə qol çəkdirəcək. Bunu etmək üçün Rusiyanın əlində 1998-ci il Ermənistan-Rusiya dostluq və əməkdaşlığı haqda sazişi var. Azərbaycan bundan heç nə itirmir.

Azərbaycan Prezidenti İlham Əliyev bunu yaxşı bilir, odur ki, bununla bağlı başqa ölkələrdə nə danışıqlar, nə də müzakirələr aparır.

Nikol Paşinyan da bundan xəbərdardır, qorxusundan o, da başqa ölkələrdə danışıqlardan qaçır, çünki keşişlərin ona qarşı inqilabı çıxışları həlë qurtarmayıb. Onlar isə birbaşa Moskvadan idarə olunurlar. İstədikləri vaxt üzə çıxa bilərlər. Odur ki, Paşinyan Rusiyanın istədiyi kimi, 10 noyabr razılaşması çərçivəsində sülh sazişini tezliklə imzalayacaq.



**Tahir Cəfərli,**
siyasi analitik

*Demokratlar Trampın qarşısına çıxara biləcəkləri siyasi lider tapa bilmirlər*

*ABŞ və AB İrana qarşı sanksiyalarını aradan qaldırmaq üçün Azərbaycandan keçən tranzit yollar İran iqtisadiyyatına böyük səmərələr verə bilər*

*Zəngəzur dəhlizinin işləməsindən ən çox faydalanacaq ölkə Rusiya və Türkiyədir*

***Sultan Laçın***



**■ Müdafiə Nazirliyinin rəhbər heyəti azad edilmiş ərazilərdə xidmət edən hərbi qulluqçularla görüşüb.**

MN-dən verilən xəbərə görə, müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizin bütün bölgələrində, o cümlədən azad edilmiş ərazilərdə hərbi qulluqçuların maddi-texniki təminatının və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması üzrə görülən işlərdən danışıb. Azərbaycan Ordusunda aparılan islahatların müsbət nəticələrini qeyd edən nazir bu istiqamətdə görülən işlərin bundan sonra da uğurla davam etdiriləcəyini əminliklə bildirib.



**■ Rüşvətxorluqda təqsirli bilinən erməniпərəst ABŞ senatoru Bob Menendes istefa verib. Bu barədə ABŞ-nin Demokratlar Partiyası məlumat yayıb. Məlumata görə, Menendes avqustun 20-də istefaya gedə bilər.**

Xatırladaq ki, bu yaxınlarda Nyu-York Andlılar Məhkəməsi Menendesi ona qarşı irəli sürülmüş rüşvətxorluqla bağlı bütün 16 ittihamla təqsirli bilib. Qeyd olunub ki, Menendesə qarşı hökm oktyabrın 29-da oxunacaq. Ermənipərəst senatoru həbs cəzası gözləyir. Ermənipərəst ABŞ senatoru Bob Menendesə və həyat yoldaşı Nadin Arslanyana qarşı irəli sürülmüş ittihamlar arasında ədalətə mane olmaq məqsədilə əlbirlik, dövlət rəsmisinin xarici agent qismində fəaliyyəti, rüşvətxorluq, zorakılıq yolu ilə pul əldə etmə və elektron rabitə vasitələrindən istifadə etməklə fırıldaqçılıq yer alıb.



**■ Silahlı münaqişələr və vətəndaş müharibəsinin viran qoyduğu Sudanda 26 milyon insan aclıq çəkir. Bundan başqa, 750 min sudanlı bu fəlakətlə bağlı ölüm astanasındadır. Bu məlumat BMT-nin hesabatında yer alıb. BMT-nin sözçüsü Stefan Dujarrik Sudanda ərzaqla bağlı vəziyyətin pisləşməsindən narahatlığını bildirib.**

O, təşkilatın baş qərargahında keçirdiyi brifinqdə deyib: "Demək olar ki, 26 milyon kişi, qadın və uşaq kəskin aclıq içindədir. Misal üçün deyim ki, bu, Avstraliyanın bütün əhalisinə bərabərdir. Həmin 26 milyon insandan 750 min nəfər isə aclıqdan ölümün astanasındadır". Sudanda Suveren Şuranın rəhbəri general Əbdülfəttah əl-Burhanın rəhbərlik etdiyi ordu ilə onun keçmiş müavini Muhammed Həmdan Daqlonun rəhbərlik etdiyi yarımhərbi Çevik Dəstək Qüvvələri (RSF) arasında döyüşlər davam edir.



**■ Avropa İttifaqına üzv 27 ölkənin səfirləri bu gün Rusiya Mərkəzi Bankının aktivlərinin qeyri-müəyyən müddətə dondurulması barədə Avropa Komissiyasının təklifini müzakirə edəcəklər.**

"Financial Times" nəşri xəbər verir ki, Rusiyanın Avropadakı 260 milyard avro dəyərində aktivlərinin dondurulması G7 tərəfdaşlarına onlardan əldə edilən gəlirlə 2024-cü ilin sonunadək Ukraynaya 50 milyard dollar kredit ayırmasını yüksək dərəcədə proqnozlaşdırmağa imkan verəcək. Analitiklərin fikrincə, ABŞ-da Kiyev üçün kredit layihəsinin təsdiqləməsinə məhz aşağı proqnozlaşdırma dərəcəsi mane olub. Qeyd edək ki, Rusiya Ukraynaya qarşı müharibəyə başlayandan bəri Avropa İttifaqı, Kanada, ABŞ və Yaponiya Moskvaya məxsus təxminən 300 milyard dollarlıq aktivləri dondurub.



**■ Azərbaycana olan təzyiqlərin necə artdığını İkinci Qarabağ Müharibəsindən sonra gördük. Bunu MSK sədri Məzahir Pənahov Milli Məclisə seçkilərdə qadınların fəallığının yüksəldilməsinə həsr olunan dəyirmi masada çıxışı zamanı deyib.**

"Az qala Azərbaycana deyələr ki, biz icazə vermədən niyə torpaqlarını azad etdin. Dünya belə qurulub. Biz çalışmalıyıq ki, öz sahələrimizdə yaxşı olaq. İndi Azərbaycan dövlətinin hər kəs tərəfindən tanınan ərazilərində ikinci dəfə seçki keçirəcəyik. Əfsuslar olsun ki, bizdə seçkilərlə bağlı müəyyən stereotiplər var. Azərbaycanda keçirilən seçkilərdə beynəlxalq qurumlar tərəfindən heç bir mübahisələr olmayıb. Biz maarifləndirmə tədbirləri həyata keçirmişik",- deyə o bildirib.



**■ Reabilitasiya müəssisələrində rezervasiya formalaşdırmaq üçün e-sosial.az platformasından ən yaxın boş tarixlər barədə məlumat əldə etmək mümkündür.**

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat verilib. Bildirilib ki, vətəndaşlar e-sosial.az - da e-Xidmətlər bölməsində yaxın tarixdə reabilitasiya müəssisələrində olan boş yerlərin siyahısı bölməsinə daxil olaraq ətraflı məlumat əldə edə bilərlər.

Eyni zamanda reabilitasiya müəssisəsinə rezervasiya formalaşdırıldıqda vətəndaşa bu barədə SMS-bildiriş göndərilməsinə başlanılıb. Bildirişdə tarix, müəssisənin ünvanı və əlaqə nömrəsi, lazımi sənədlərin siyahısı və s. barədə məlumatlar təqdim olunur.

# Süni intellektlə bağlı qanunvericilik dəyişdirilməlidir



*Dövlətin əlində toplanan nəhəng datadan effektiv istifadə məsələləri gündəmə gətirilməlidir*

*Özəl, dövlət qurumları öz xidmətlərini rəqəmsallaşdırır və süni intellekt də bu rəqəmsallaşmaya inteqrasiya edir*

***Sosial şəbəkə xidmətləri göstərən böyük şirkətlər etik normalara riayət etmək üçün çox səy göstərməkdə, sosial şəbəkələrdə dezinformasiyanın və manipulyasiya elementlərinin qarşısının alınmasında və tənzimləmə mexanizminin tətbiqində maraqlı deyillər. Bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev II Qlobal Media Forumunda çıxış edərkən deyib. O, vurğulayıb ki, biz yeni reallıqlarla qarşı-qarşıyayıq: "Süni intellektin inkişafı, informasiyanın sosial şəbəkələrdə yayılması zamanı onun imkanlarının tətbiqi ola bilər ki, gələcəkdə, biz bunu artıq bu gün də müşahidə edirik, nizamlanmayan nəticələrə gətirib çıxarsın".***

## Təklif

H.Hacıyev əlavə edib ki, tərəflər sosial şəbəkələrdə tənzimləmə mexanizminin tətbiqində müsbət nəticə əldə edə bilməsələr, beynəlxalq səviyyədə süni intelleklə bağlı hansısa mexanizmi birgə tətbiq edə bilərlər: "Bəlkə də süni intellektlə bağlı qanunvericilik, tənzimləyici və ya konvensiya bazasının işlənib hazırlanması barədə düşünməyin vaxtı çatıb". H.Hacıyevin sözlərinə görə, bu məsələdə özəl təşəbbüslər var, lakin beynəlxalq səviyyədə bu məsələ ilə bağlı ciddi müzakirələr aparılmır.

■ **Mövzu ilə bağlı Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz bildirib ki, hazırda Azərbaycanda süni intellekt texnologiyasının inkişaf etdirilməsi ilə dövlət sektorundan iki qurum məşğul olur:**

"İqtisadiyyat Nazirliyi yanında 4SİM qurumu, RİNN yanında Azərbaycan Süni İntellekt Laboratoriyası fəaliyyət göstərir. Hər iki qurum data və süni intellekt sahəsində strategiyanın hazırlanacağını bildirsə də hələlik belə layihələr ortada yoxdur. Görünən odur ki, ölkəmizdə bu sahənin inkişafı istiqamətində müəyyən addımlar atılsa da hələlik real nəticələr barmaqla sayıla bilər. Dünya trendlərinə baxanda görmək olar ki, onlar milli strategiyalarında artıq İKT-dən gələn gəlirlərdən deyil, məhz süni intellektdən əldə olunan gəlirdən və üstünlüklərdən danışırlar. Düşünürəm ki, səlahiyyətli qurumlarımız bu sahəyə diqqəti artırmalıdır. Bu sahədə işlər çox ləng gedir.

Maraqlı tərəflərin səylərini bir yerə cəmləşdirmək, prioritetləri müəyyənləşdirmək lazımdır. Milli Korpus hazırlanmalıdır. Dövlətin əlində toplanan nəhəng datadan effektiv istifadə məsələləri gündəmə gətirilməlidir. Bura investisiyalar yatırılmalıdır. Hələlik süni intellekt sahəsinə real investisiya yatıran, real iş görməyə başlayan dövlət qurumu Dövlət İmtahan Mərkəzidir. DİM bununla bağlı tender elan edib. Tenderin qalibi də məlumdur, müqavilələr imzalanıb. Bu, yerli "Robotronics" şirkətidir. Qurum bu işdə ETN İdarəetmə Problemləri İnstitutu (keçmiş Kibernetika) ilə əməkdaşlıq edir. DİM vətəndaş müraciətlərini süni intellekt texnologiyası əsasında cavablandıran sistem - robot operator hazırlayır. Ən yaxın zamanda test rejimində işə başlaması gözlənilir".

■ **Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası"nın (AİKTSA) İdarə Heyətinin sədri Elvin Abbasov deyib ki, süni intellekt artıq bütün dünyada inkişaf edən tendensiyaya çevrilib:** "Bu gün həm özəl, həm də dövlət qurumları öz xidmətlərini rəqəmsallaşdırır və süni intellekt də bu rəqəmsallaşmaya inteqrasiya edir. Bunun üçün hər bir ölkə həm süni intellektin təhlükələrinə qarşı qabaqcıl tədbirlər görməyə, həm də faydalarından yararlanmağa çalışır. Lakin təəssüf ki, süni intellektlə insanları müxtəlif kampaniyalara cəlb etmək, onları qaralamaq üçün aparılan işlər də az deyil. Bu, bir neçə ildir ki var. Təqribən səkkiz il əvvəl başlayan bir tendensiya idi ki, o zaman daha çox film sektorunda özünü göstərdi. İlk olaraq filmdə baş rol oynayan aktyorun ölməsi ilə başlamışdı.

Daha sonra pornoqrafıq sektorda məşhur insanların pornoqrafiq filmləri çəkilərək davam etdirildi. Son illərdə isə siyasətçilərin adından müxtəlif formada istifadə olunur. Süni intellektin bu cür mənfi tərəfləri var ki, saxtakarlıqda çox geniş istifadə olunur. Xüsusilə də siyasətçilər, dövlət rəhbərləri adından saxta videolar çəkilərək insanları müxtəlif kampaniyalara cəlb edirlər. Süni intellekt həmçinin kiberdələduzluqda da çox geniş istifadə olunur. Təəssüf ki, saxtakarların istifadə etdiyi, hətta dövlət rəhbərlərinin, siyasətçilərin adından paylaşılan videoların da real, yoxsa saxta olması anlaşılmır. Yayılan platformalarda bu videoların yalan, yoxsa real olması bilinmir, həmin sosial şəbəkələr bunu texnoloji olaraq aşkarlaya, sübut edə bilmir. Bu nə vaxt aşkarlanır? Aidiyyəti qurumlar bu videonun saxta olması ilə bağlı həmin sosial şəbəkələrə reaksiya verdikdə, o zaman müdaxilə olunur. O səbəbdən dünyada saxta videoları araşdırmaq üçün müxtəlif standartlar yaradılmağa, qanunvericiliklər tətbiq etməyə çalışırlar. Hər bir halda Azərbaycan da bu cür kampaniyalara məruz qalır. Dövlət başçısı adından da saxta videolar yayılır, insanları müxtəlif kampaniyalara cəlb etməyə çalışırlar. Bu baxımdan artıq Azərbaycanda da qanunvericilikdə süni intellektin müxtəlif layihələrə tətbiq olunması, həm də iş mexanizminin təşkili ilə bağlı dəyişikliyə ehtiyac var".

*✍ Sevinc*



Müzakirə

# Sürəti də artacaq, qiyməti də

***Məlum olduğu kimi, avqustun 15-dən Azərbaycanda internetin qiyməti bahalaşacaq. Rəsmi məlumata görə, "Aztelekom" GPON (Gigabit Passive Optical Network - Gigabit tutumlu Passiv Optik Şəbəkə) tarifləri üzrə təqdim olunan sürətləri 2.5 dəfə (40 Mbit/s internet sürətini 100 Mbit/s-yə, 60 Mbit/s internet sürətini 150 Mbit/s-yə və 100 Mbit/s sürətini isə 250 Mbit/s-yə qədər) artıracaq. Yeni sürət tariflərində abunəçilər üçün minimal sürət 100 Mbit/s-dən başlayacaq. Belə ki, abunəçilərə 100 Mbit/s internet üçün 25 AZN, 150 Mbit/s internet üçün 30 AZN, 250 Mbit/s internet üçün 36 AZN qiymət təklif ediləcək. "Aztelekom" və "Bakı Telefon Rabitəsi" İnternetin qiyməti ilə bağlı məlumatlara aydınlıq gətirərək bildirib ki, aparılan infrastruktur təkmilləşdirmələrinin məqsədi vətəndaşların yüksəksürətli internetə artan tələbatının qarşılanması və daha yüksəkkeyfiyyətli internet xidmətlərindən faydalanmasıdır:***

*Qiymət siyasəti elə qurulmalıdır ki, hamı üçün ehtiyacına uyğun olaraq əlçatan olsun*

*Azərbaycanda internet əzəldən qonşu ölkələrlə müqayisə edilməyəcək dərəcədə baha olub və bu fərq getdikcə artır*

"Qiymət siyasətimiz müştərilərimizə daha yüksək sürət və Mbit həcminə görə mümkün optimal qiymət təklif etmək şərti ilə bazar tələblərinə uyğun formalaşdırılır".

Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz hesab edir ki, qiymətlərin artırılması doğru addım deyil: "Provayderlər, o cümlədən dövlət provayderləri internet tariflərini 40 faiz qaldırır. Hazırda minimal qiymət 18 manat müəyyən olunub və bu ödənişlə vətəndaş 40 Mbit/s sürət əldə edə bilir. İndi təklif olunan isə minimal 100 Mb/s üçün 25 manat olacaq. Görünür ki, provayderlər, o cümlədən dövlət provayderləri də bir anda varlanmaq xətti götürüblər. Baxırlar ki hamı ölkədə qiymətləri qaldırır, düşünüblər ki onlar niyə etməməlidirlər. Bütün bunlar isə düşünürəm ki, doğru bir yanaşma deyil. Xüsusən də regionlar üçün. Hamı üçün minimal sürəti 100 Mbit/s etməklə hansısa beynəlxalq reytinqlərdə yüksək yerlər qazanmağı vətəndaşlarımızın maraqlarından üstün tutmaq yolverilməzdir. Azərbaycanda rəsmi rəqəmlərə görə əhalinin yarısı kənd əhalisidir. Bu birmənalıdır. Belə olan halda hamı üçün minimal sürəti 100 Mbit/s etmək görəsən kimin ağlına gəlib. İndi mən sual edirəm hökumətə, kənddə yaşayan, sahibkarlıqla məşğul olmayan, VÖEN-i olmayan, min cür əziyyətlə çörəkpulu - gündəlik ruzisini qazanan, yalnız övladı ilə internet üzərindən əlaqə saxlayan, yalnız hansısa bir onlayn xidmətlərdən yararlanan, hansısa bir təhsil və ya digər dövlət xidməti alan bir vətəndaşımızın 100 Mbit/s sürətə ehtiyacı varmı? Bu vətəndaşlarımız hara sərf edəcək bu sürəti? Nə üçün biz zorla ona zəruri olmayan bu sürəti verib min əziyyətlə qazandığına şərik olmalıyıq? Qiymət siyasəti elə qurulmalıdır ki, hamı üçün ehtiyacına uyğun olaraq əlçatan olsun. Dövlət provayderlərin bu tip addımları isə ümumiyyətlə ağlasığmazdır. Provayder ona görə hələlik dövlət provayderidir ki, məhz vətəndaşın tələbatına və gələcək inkişafına zəruri olan internetə əlçatanlığı olsun". Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov isə deyib ki, yanacağın qiymətində baş verən dəyişikliklərin müəyyən qiymət artımlarına səbəb olacağı əvvəlcədən məlum idi: "Çünki ölkə daxilində və xaricdən ölkəmizə daşımaların böyük əksəriyyəti dizel yanacağından istifadə edən avtomobillərlə həyata keçirilir. Eyni zamanda kənd təsərrüfatında əkin-biçin və digər işlərdə istifadə olunan texnikanın demək olar ki, hamısı dizel yanacağı ilə işləyir. İnternetin bahalaşmasının qiymət artımlarına birbaşa təsiri elə də ciddi olmayacaq. Lakin Azərbaycanda internet əzəldən qonşu ölkələrlə müqayisə edilməyəcək dərəcədə baha olub və bu fərq getdikcə artır ki, azalmır. Dediklərimizi əsaslandırmaq üçün Rusiyanın "Bilayn" şirkəti ilə "Baktelekom" şirkətinin insanlara təklif etdikləri ev internetinin qiymətlərini müqayisə edək. "Bilayn" şirkəti vətəndaşlara saniyədə sürəti 500 m/b olan ev internetinin bir aylıq ödəniş haqqını Azərbaycan manatı ilə 2 manat 89 qəpik müəyyən edirsə, Azərbaycanda "Baktelekom" bir aylıq ev interneti üçün 18 manat xidmət haqqı alır və indi də həmin qiyməti 40 faizə qədər bahalaşdırıb. Aylıq ödəniş haqqını 25 manat müəyyənləşdirir ki, bu da Rusiyada "Bilayn" şirkətinin insanlara təklif etdiyi ev internetinin bir günlük qiymətindən 8,7 dəfə bahadır. Rusiya da Azərbaycan kimi interneti kənardan alır. Bəs onda bu qədər fərq nə deməkdir?!".

*✍ Sevinc*

# Nəzarət mexanizmi yaradılıb

***"Rəqabət Məcəlləsi"nə əsasən Azərbaycanda subsidiyaların verilməsinə nəzarət mexanizmi yaradılıb. Bunu jurnalistlərə açıqlamasında İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarlarına Nəzarət Dövlət Xidmətinin əməkdaşı Şəmsi Rzalı deyib. O bildirib ki, mexanizmin yaradılması yeni qanuna əsasən həyata keçirilib: "Təbii inhisar subyektləri subsidiya alırlar. Belə olduqda özəl təsərrüfat subyektləri üçün çətin vəziyyət yarana bilər. Odur ki, Rəqabət Məcəlləsi ilə bu sahəyə nəzarət ediləcək".***



Qeyd edək ki, bu ayın 1-dən Azərbaycanın Rəqabət Məcəlləsi qüvvəyə minib. Bildirilir ki, 12 fəsil, 84 maddədən ibarət olan Məcəllə ölkədə əlverişli biznes mühitinin inkişafı, təsərrüfat subyektlərinin sayının və iqtisadiyyata cəlb olunan investisiyaların artması üçün geniş imkanlar yaradacaq. Məcəllənin 34-cü maddəsində qeyd olunur ki, rəqabət orqanı dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, habelə tənzimləyici qurumlar tərəfindən iqtisadiyyatın müəyyən sahələrində fəaliyyət göstərən təsərrüfat subyektlərinə subsidiya və digər dövlət yardımlarının verilməsinin və tənzimləmə tədbirlərinin rəqabətə təsirini mütəmadi olaraq qiymətləndirməlidir. Qiymətləndirmənin nəticələrinə əsasən rəqabət orqanı subsidiya və digər dövlət yardımlarının verilməsinin və tənzimləmə tədbirlərinin rəqabətə olan mənfi təsirlərini aradan qaldırmaq məqsədilə dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, habelə tənzimləyici qurumlara təkliflər verə bilər. Eyni zamanda, rəqabət orqanı subsidiya və qanunla müəyyən edilən digər yardımlarının verilməsinin və tənzimləmə tədbirlərinin rəqabətə təsirinə dair cari ilin qiymətləndirmə nəticələri barədə növbəti il martın 31-dən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) illik hesabat və təkliflər təqdim etməlidir.

Bəs, görəsən, Antiinhisar Xidmətinin subsidiyaların verilməsinə nəzarət etməsi bu sahədə nəyi dəyişəcək?

■ **Məsələni qəzetimizə şərh edən Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli hesab edir ki, bu formal bir nəzarət olacaq.** Onun fikrincə, bu sahədə əlavə nəzarətçi orqana ehtiyac yoxdur: "Bununla bağlı nəzarəti Kənd Təsərrüfatı Nazirliyi də həyata keçirə bilər. Hazırda bu prosesə elə həmin qurum tərəfindən nəzarət edilir. Hesab edirəm ki, bu sahədə əlavə nəzarətçi orqana ehtiyac yoxdur. Bu sadəcə, formal xarakterli nəzarət olacaq".

*✍ Müşviq*

# Natiqlik çempionatının yarımfinal mərhələsi yekunlaşdı

R

**Azərbaycan dilinin inkişafına töhfə vermək məqsədilə "Nar"ın dəstəyi ilə "Diksiya Akademiyası"nın növbəti dəfə təşkil etdiyi "Ana dilində hekayəni danış" adlı natiqlik çempionatının yarımfinal mərhələsi uğurla yekunlaşıb.**

19 nəfərin iştirak etdiyi "Ana dilində hekayəni danış" adlı natiqlik çempionatının yarımfinal mərhələsi boyunca iştirakçılara məzmun seçiminin önəmi, bədən dili və səs istifadəsi, auditoriya ilə bağ yaratmaq və çıxış zamanı yaddaqalan mesaj ötürmək mövzularında hərtərəfli təlimlər keçirilib. Üstün nitq bilikləri sayəsində final mərhələsinə keçən 10 iştirakçı isə səhnədə peşəkar çıxış etmə bacarıqları üzrə dəyərləndirilərək 1 avqust tarixində keçiriləcək final mərhələsində mükafatlandırılacaq. "Nar" Azərbaycanın mədəni irsinin qorunması və təbliği üçün ana dilimizin inkişafına yönəlik layihələri fəal şəkildə dəstəkləyir. Bununla yanaşı, gənc nəslə ünsiyyət və özünüifadə bacarıqlarını inkişaf etdirmək imkanı yaradır. Mobil operatorun korporativ sosial məsuliyyət sahəsində gerçəkləşdirdiyi layihələr haqqında ətraflı məlumatı nar.az




səhifəsindən əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Yeni toy modelinə ehtiyacımız var

*"World Index" dünyada toyların ən baha olduğu ölkələrin siyahısını hazırlayıb. Araşdırmaya görə, toy məclisi təşkilinin ən baha olduğu ölkə ABŞ-dir. Bu ölkədə toy məclisi təşkil etmək 35 min dollara başa gəlir. Sıralamada ikinci yerdə Böyük Britaniya dayanır. Burada toy etmək istəyənlər 28 min 500 dollarından keçməlidirlər. Növbəti pillədə İspaniya dayanır. Bu ölkədə toy xərci 25 min 700 dollardır. Toy xərcinin baha olduğu ölkələrdən biri də Hindistandır və burada toylar 25 min dollara başa gəlir. İtaliyada toy etmək istəyənlər 23 900 dollar, Fransada 21 800 dollar, Kanadada 20 000 dollar, Portuqaliyada 18 000 dollar, Uruqvayda 15 700 dollar, Çilidə 9 000 dollar xərcləməlidirlər.*



## Cəmiyyət

Qeyd edək ki, Azərbaycan da toy xərcinin bahalı olduğu ölkələrdən sayılır. Hətta bu səbəblə bir neçə il bundan əvvəl BMT-nin Əhali Fondu tərəfindən hazırlanan hesabatda "lider" olub. Azərbaycanda ifrat toy xərcləri problemi dəfələrlə ictimai müzakirələrin predmetinə çevrilib. Bəs, görəsən, hazırda Azərbaycanda toy xərcləri nə qədərdir? Təbii ki, Azərbaycanın da özünəməxsus toy adətləri mövcuddur. Ailə qurmaq istəyən gənclər nişan, qız toyu, xına və oğlan toyu kimi mərhələlərdən keçməlidirlər. Adətə görə, nişan və qız toyunda oğlan tərəfi gəlinə geyim və qızıl əşyaları hədiyyə etməlidir. Qız evinin əsas yükü isə cehizdir. Bu mərhələdə toy sahibləri xərcləri qarşılamaq üçün hətta kredit də götürürlər. Araşdırmalara görə, bir gəncin ailə qurması üçün minimum 10-12 min, maksimum isə 100-150 min manatdan artıq xərc tələb olunur.

İndi gəlin toy xərclərinin strukturuna nəzər salaq:

Sadə nişan üzükləri: 350-500 manat;

Brilyant qaşlı üzüklər: 700-1500 manat;

Qızıl dəstlərinin qiyməti: 1500-30000 manat;

> *Hazırda keçirilən toylar xalqa yalnız iqtisadi ziyan vurmur, eyni zamanda, insanlar arasında müəyyən gərginliklər yaradır*

> *Bu cür toylar yeni qurulan ailələrə də zərər vurur*

Evlilik təklifi üçün mərasimlər: 500-2000 manat;

Gəlinliklərin icarəsi: 350-5000 manat;

Gəlinin saç-makiyajı: 350-700 manat;

Şadlıq saraylarında 1 nəfər üçün qiymət: 50-350 manat;

Xonça qablarının icarəsi: 7-15 manat;

Gəlin maşınlarının icarəsi: 150-300 manat;

Gül buketləri, gəlin gülləri: 85-150 manat;

Nişan mərasimi üçün tortun kilosu: 18-35 manat;

Fotosessiya: 350-500 manat;

Musiqiçilər: 700 manatdan başlayır;

Restoranlarda toydan sonra atəşfəşanlıq: 800-2000 manat.

Bölgələrdə isə şadlıq evləri və restoranlarda qiymətlər 35-60 manat arasında dəyişir. Təbii ki, bu rəqəmlər menyu və adam sayına görə tənzimlənir. Regionlarda toy sahibləri şadlıq evlərini icarəyə də götürürlər (yəni yeməkləri özləri hazırlayırlar və s.), belə halda isə bir stulun qiyməti 10-11 manat arasında dəyişir.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən sosioloq Əhməd Qəşəmoğlu Azərbaycan toylarını sosial bəla hesab edir: "Toylarımızı sosial bəla hesab edirəm. Bu cür toyların olması Azərbaycanda mənəviyyata, mənəvi proseslərə böyük zərbə vurur.** İlk baxışdan bəlkə də heç kəs bunu hiss etmir. Hazırda keçirilən toylar xalqa yalnız iqtisadi ziyan vurmur, eyni zamanda, insanlar arasında müəyyən gərginliklər yaradır. Belə ki, hazırda bir azərbaycanlı ailənin ortalama gəlirinin 80 faizi onların öz ehtiyaclarını ödəyir. Qalan pulu da məcburdurlar ki, gələn toy dəvətlərinə xərcləsinlər. Bundan əlavə, toy edən şəxs də lazımsız xərcə düşür, şadlıq sarayları 50-ə yaxın yemək təklif edirlər. Dinimizdə də qeyd olunub ki, israfçılıq etmək qadağandır. Fikirləşin ki, evimizə ən əziz qonaq gəldiyi zaman maksimum 5-6 cür yemək hazırladığımız təqdirdə nəyə görə toylarda bu rəqəm artır? Bunun israfçılıqdan başqa adı ola bilməz. Heç kəs zəmanət verə bilməz ki, toylarda verilən salatlar hamısı təzədir. Çoxumuz bilirik ki, onların bəzisi dünəndən qalma salatlar olur. Bundan əlavə, toylardan sonra musiqi dünyasına da böyük zərbə dəydi. Belə ki, şou-biznes əhli toylar artdıqca qiymətləri də artırdı. Toy sahibləri də yarışa girərək 30 dəqiqə üçün qalaq-qalaq pullarından keçdilər. Sonda da toy sahibi yox, şadlıq sarayları, müğənnilər qazandı. Toydakı səs-küy də sözlə deyiləsi deyil. Yaşlı insanları nəzərə almayan musiqiçilər yalnız öz ciblərini güdürlər".

Onun sözlərinə görə, Azərbaycanda yeni toy modelinin hazırlanmasına ehtiyac var: "Təcili şəkildə toy modeli dəyişilməlidir. Buna Mədəniyyət Nazirliyi, humanitar-sosial işlərlə məşğul olan qurumlar məsuliyyət daşıyır. Tez bir zamanda mütəxəssislər elə bir toy modeli hazırlamalıdır ki, burada əsas prinsiplər ödənsin. Toy iki gəncin ailə qurmasının başlanğıcıdır. Elə toy modeli olmalıdır ki, gənclər üçün ən yadda qalan gün olsun. Təntənəli gecə kiminsə süfrəyə 50 cür yemək verməsi deyil. Bizim folklorumuzun, adət-ənənəmizin əks olunduğu gün kimi keçirilməlidir. Bu gün Azərbaycanın yeni toy modelinə ehtiyacı var."

■ **Sosioloq Elçin Bayramlı da hesab edir ki, dünyada ən biabırçı toy mərasimi hazırda bizdədir: "Çünki burada nə milli, nə də bəşəri dəyərlər qalmayıb. Hər cür dəhşətli israfçılıq, görməmişlik, harınlıq burada birləşir.** Toy zalındakı dəhşətli hayhəşir, süfrədə ağla gələn-gəlməyən bütün nemətlərin düzülərək israf olunması və s. Üstəlik bu cür toylar yeni qurulan ailələrə də zərər vurur. Onların bir çoxu borc-xərcə düşür və toya gələn qonaqlar da Azərbaycan üçün böyük bir məbləğ sayılan pulu itirmiş sayılırlar, çünki o pul həmin ailəyə yox, hansısa biznes sahiblərinə çatır. Belə toyun artıq heç bir müsbət tərəfi yoxdur. Keçmişdə belə deyildi, bu, son vaxtlar bizim milli genetik xəstəliyimiz olan bəhsə düşmək, özünü başqalarına olduğundan üstün göstərmə xasiyyətlərinin inikasıdır".

*✍ Sevinc*

## HƏFTƏ REYTİNQ

### Həftənin DAVASI



Xalq artisti Ağadadaş Ağayevin iştirak etdiyi dava ilə bağlı cinayət işi açılıb. Bu barədə DİN-in Mətbuat xidmətindən bildirilib ki, paytaxtın Binəqədi rayonunda baş verən insidentlə əlaqədar araşdırma aparılır. Fakta görə Cinayət Məcəlləsinin xuliqanlıq maddəsi ilə cinayət işi başlanılıb. Münaqişə tərəfləri - N.Cəlilov və A.Ağayev cinayət məsuliyyətinə cəlb edilib. Cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir.

### Həftənin HƏDİYYƏSİ



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Kipr Sülh Hərəkatının 50-ci ildönümü ilə bağlı tədbirlərdə iştirak etmək üçün Şimali Kipr Türk Respublikasına səfər edib. Səfəri zamanı Ərdoğana müxtəlif hədiyyələr təqdim edilib. Prezidentə verilən hədiyyələr arasında ən təsirlisi isə anası Tənzilə Ərdoğanla portretini əks etdirən filoqrafiya tablosu olub. Bu özəl tablonun hazırlamasında 380 mismar və 7387 metr ipdən istifadə edilib.

### Həftənin İSTEFASI



ABŞ Məxfi Xidmətinin rəhbəri Kimberli Çitl istefa verib. Qeyd olunub ki, ABŞ-nin sabiq Prezidenti Donald Trampın seçki mitinqində güllələnməsindən sonra tənqidlərə məruz qalan Kim Çitl istefa verib. "Təhlükəsizliyin pozulmasına görə bütün məsuliyyəti öz üzərimə götürürəm. Hadisələrdən sonra çətin variantı seçdim və istefa verməyə qərar verdim" , - Çitl bildirib.

### Həftənin FUTBOLÇUSU



"Barselona"nın keçmiş hücumçusu, hazırda "İnter Mayami"də çıxış edən Lionel Messi "21-ci əsrin ən yaxşı futbolçusu" seçilib. Bu haqda siyahını məşhur idman nəşri ESPN müəyyənləşdirib. Siyahıda ikinci yeri Səudiyyə Ərəbistanının "Əl-Nəsr" klubunun hücumçusu Kriştiano Ronaldo tutub.

### Həftənin KORPUSU



Türkiyə ilə Yunanıstan arasında yeni körpü salınacaq. Bu barədə Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu deyib. O bildirib ki, uzunluğu 841 metr nəzərdə tutulan körpünün layihəsi tamamlanıb və qısa vaxta tendərə çıxarılması gözlənilir: "Bununla bağlı 2004-cü ildə Afinada razılıq sənədi imzalanıb. Layihə ancaq Türkiyə və Yunanıstan üçün deyil, bütün bölgə üçün böyük əhəmiyyət kəsb edir".

### Həftənin QORXUSU



SSRİ Xalq artisti Alla Puqaçova ailəsi ilə yay tətilini Latviyanın Yurmala şəhərində keçirir. Sənətçi küçəyə mühafizəçisiz çıxmağa qorxur.

O, KİV və bloqerlərin həddsiz diqqətindən çəkinir. Bildirilir ki, mühafizəçi müğənni və uşaqlarını hər yerdə müşayiət edir. Xatırladaq ki, 2022-ci ildə A.Puqaçova ailəsi ilə birlikdə İsrailə, daha sonra Kiprə köçüb. Buna səbəb Rusiya-Ukrayna müharibəsi olub.

*✍ Azad Əliyev*


## "Bakcell"dən eksklüziv təkliflə smartfon al ®

**İnnovativ məhsul və xidmətləri ilə hər zaman öndə olan "Bakcell"dən smartfonunu yeniləmək istəyən abunəçilərə şad xəbər! "Bakcell" mağazalarından hissəli ödənişlə smartfon alan abunəçilərə 18 ay müddətində xüsusi seçilmiş tariflərdən biri hədiyyə olunacaq.**

Kampaniya çərçivəsində smartfon alan abunəçilərə hər ay 350 dəqiqə ölkədaxili zənglər, 5GB internet, pulsuz "WhatsApp" və "Telegram" mesajları daxil olan tarif paketi ödənişsiz təqdim ediləcək. Bundan əlavə, alınan smartfonun modelinə uyğun olaraq, abunəçilərə digər tariflər də təklif oluna bilər. Yalnız rəsmi "Bakcell" mağazalarında keçərli olan bu təkliflə bağlı ətraflı məlumatı "Bakcell" mağazalarından və ya http://www.bakcell.com saytından əldə etmək mümkündür.

Qeyd edək ki, gələcəyə hədəflənən yeni brend strategiyası ilə "Bakcell" ölkəmizdə abunəçilərə innovativ xidmət və məhsullar təqdim edir. Şirkət qarşıdakı dövrdə bir sıra yeni məhsulları abunəçilərin ixtiyarına verəcək.





## GÜNÜN FOTOSU



Etna yenidən püskürdü

## Hər kəsin gözlədiyi əməkhaqqı artımı

**Pərviz Heydərov,**
iqtisadçı-ekspert

Ölkəmiz minimum əməkhaqqını orta aylıq əməkhaqqı səviyyəsinin 60 faiz hissəsinə çatdırmağı öhdəlik götürüb.

▸▸ Səh. 5

## STATİSTİKA



■ **2015-ci ildən 2024-cü ilin I yarımilinədək sənaye zonalarında 13,5 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, bunun da 4,4 milyard manatlıq hissəsi ixrac edilib.**

Bu ilin birinci yarısında sənaye zonalarında 1,4 milyard manatlıq satış həyata keçirilib ki, bunun da 477 milyonluq hissəsi ixracın payına düşür. Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 70-dən artıq ölkəsinə ixrac edilib.



▸▸ Səh. 5

## Magistrlar da təhsil müəssisəsini dəyişə bilər?